


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 5 (24.387)

3 fevral 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti


## 2024-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2024-cü il Gənclər üçün Prezident mükafatları verilsin:

Abdullayeva Gülnar Rizvan qızı
Ağamirova Rəvanə Seymur qızı
Ağazadə Taryel İsa oğlu
Allahverdiyev Ayxan Elman oğlu
Baxışova Rzayeva Kimyəxanım Ziyad qızı
Məhərrəmova Zərifə Hüseyn qızı
Məmmədov Ulucay Akif oğlu
Məmmədova Dinara Bəxtiyar qızı
Məmmədova Fatimə Nizami qızı
Mirələmli Pərviz Atamalı oğlu.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 1 fevral 2024-cü il*

## Prezident həftəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stili qəbul edib.



# Onun izi ilə
## Onun yurduna

Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqının tarixində böyük rol oynamış, xilaskarlıq missiyasını yerinə yetirmiş belə şəxsiyyətlərdən biri idi Ulu Öndər Heydər Əliyev... Şanlı tariximizin səhifələrinə adını əbədi həkk edən Ulu Öndər Heydər Əliyev həm tarixi şəxsiyyətdir, həm də tarixi yaradan şəxsiyyətdir. Onun xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etməklə bərabər həm də dahi lider kimi fenomenal şəxsiyyətin zəngin, çoxşaxəli ömür yoluna işıq tutur.

***Dünya qədər Azərbaycan sevgisi…***

Hər şey artıq illərdir, üzərində işlədiyim, dahi şəxsiyyətin zəngin dövlətçilik fəaliyyətinə həsr edəcəyim kitabın ərsəyə gəlməsi məqsədilə başladı. Ulu Öndər Heydər Əliyev adının məsuliyyəti, böyüklüyü təqdim edəcəyim işlərin, necə deyərlər, daha da möhtəşəm olmasını tələb edirdi.

Təbii ki, bu böyük insan haqqında yazarkən, araşdırma apararkən unutmamaq lazımdır ki, Azərbaycanın 100 ilə yaxın şərəfli tarixini qələmə alırsan. Bu şərəfli tarixi öz siyasi kursu, Azərbaycançılıq ideologiyasına söykənən dövlətçilik xətti ilə quran Ulu Öndər Heydər Əliyev haqqında isə hələ bundan sonra da yüz illər boyu zəngin tədqiqatlar aparılacaq, cild-cild ədəbiyyat nümunələri yazılacaq, hekayələr qələmə alınacaq. Təsadüfi deyil ki, Vətənini ümman qədər sevən, xalqına olan məhəbbəti ilə coşub-çağlayan bu şəxsiyyət bir çox nitqlərində ***"Mən həyatımın bundan sonra qalan hissəsini də öz xalqıma, Vətənimə, müstəqil Azərbaycana xidmətə həsr edəcəyəm"***, – deyirdi. Vətənimizin tarixi taleyi üçün dilə gətirdiyi hər bir sözə, xalqına verdiyi hər vədə, əhdinə, etiqadına sonuna qədər əməl edirdi. Sonuna qədər…

***Naxçıvandan başlanan haqq-ədalət yolu***

Dahi şəxsiyyətin siyasi fəaliyyəti ilə maraqlananlar çox yaxşı bilir bu həqiqəti… Ulu Öndər Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq keçmiş SSRİ-də tutduğu vəzifələrdən istefa vermişdi. Azərbaycan xalqının azadlığını, müstəqilliyini tanımayan, Vətənin bütün sərvətlərini mənimsəyən imperiyaya o dövrdə etiraz səsi ucaltmaq çox böyük cəsarət və qüdrət tələb edirdi. Ulu Öndər bunu bacarmışdı... Bu hadisədən bir qədər sonra – 1990-cı il yanvar ayının 20-də Bakıda baş verən terror hadisəsinə də ilk etiraz edən Ümummilli Lider Heydər Əliyev olmuşdu. Moskvada yaşaması Onun həyatı üçün çox böyük təhlükə idi. 1990-cı il iyulun 20-də Bakıya qayıdan Ulu Öndər iki gün sonra Naxçıvana yola düşdü, həmin ildə də Azərbaycan və Naxçıvan parlamentlərinə deputat seçildi. Onun bu çətin günlərində, təbii ki, Naxçıvan Ona – doğma övladına, Vətən oğluna qucaq açmışdı. Tarixin yaşıdı olan Naxçıvan hər addımında dahi şəxsiyyətin yanında idi. Təsadüfi deyil ki, bu gün doğma naxçıvanlılardan, Ulu Öndəri görüb, onunla söhbət etmək xoşbəxtliyini qazanmış naxçıvanlı soydaşlarımızdan xilaskar şəxsiyyət barədə soruşsanız, səmimi şəkildə sizə deyəcəklər: gözəlliyi, təmizliyi ilə seçilən qədim yurdun hər bir guşəsində Heydər Əliyevin xüsusi zəhməti var!

***Ümidlərin bitdiyi yerdə O…***

Naxçıvan Muxtar Respublikasında az adam tapılar ki, Ulu Öndəri yaxından görməmiş olsun. Tarixi qeydlərdən və soydaşlarımızın (xüsusən də naxçıvanlı) bir çoxunun xatirələrindən də məlumdur ki, O, Moskvadan Naxçıvana gələndə Onu şəhərin baş meydanında keçirilən görüşdə 70-80 min nəfər alqışlamışdı, muxtar respublika Ali Məclisinin Sədri seçiləndə sessiyanın keçirildiyi binanın ətrafına on minlərlə adam toplaşmışdı, şəhər və kəndlərdəki görüşlərinə saysız-hesabsız insan qatılmışdı. Təbii ki, bunlar müdrik rəhbərə xalq sevgisindən, el məhəbbətindən irəli gəlirdi. Dahi rəhbərin o ağır, məşəqqətli günlərdə söylədiyi fikirlər isə hər bir azərbaycanlıda iftixar doğurur: ***"Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövrlərində xalqın dərdinə şərik olmaqla vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm… Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir".***

Ulu Öndərin siyasi fəaliyyətinin təməllərinin böyük bir hissəsi məhz Naxçıvanda olduğu illərdə atılıb. Bu məqamda bir fakta da diqqətə çatdıraq ki, Ümummilli Lider Heydər Əliyevin sözügedən illərdəki fəaliyyəti o dövrdə bir sıra qəzet və dövri nəşrlərdə, xüsusən də 90-cı illərdə muxtar respublikanın rəsmi mətbuat orqanı olan "Şərq qapısı" qəzetində işıqlandırılmışdı. O çətin illərdə dahi rəhbərin nəşr etdirdiyi qəzet xalqın xitabət kürsüsü, ali söz tribunası idi… Elə mənim Naxçıvan Muxtar Respublikasına səfərimdə də mətbuat tariximizin bir əsrdən artıq dövrünə şahidlik edən "Şərq qapısı" qəzetinin böyük rolu oldu…

***"Şərq qapısı" qəzeti vasitəsilə Şərqin qapısına – Ulu Öndərin ana yurduna səfər***

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini qeyd etdiyimiz ötən il ərzində ölkəmizin bir sıra nüfuzlu mətbuat orqanları silsilə məqalələr, reportajlar, xatirə yazılar dərc etdi. Jurnalistlərimizin axtarışlarının nəticəsi olan hər bir ədəbi yaradıcılıq nümunəsinin kütləvi informasiya orqanlarında, o cümlədən televiziyalarımızda, nüfuzlu qəzetlərimizdə işıqlandırılması, sözsüz ki, tarixi şəxsiyyətin fəaliyyətini öyrənməkdə böyük rol oynadı. Qeyd-şərtsiz etiraf etmək lazımdır ki, bu istiqamətdə "Şərq qapısı" qəzetinin operativliyi və məlumat zənginliyi də daha çox seçildi və diqqət çəkdi. Hələ 90-cı illərdə Ulu Öndərin "Daha susa bilməzdim" başlıqlı müsahibəsini dərc etməklə gündəmi zəbt edən bu qocaman mətbuat orqanı, 2023-cü ildə – dahi siyasi xadimin 100 illik yubileyində bir sıra maraqlı araşdırma yazıları, reportajları ilə də mətbuat tariximizə böyük töhfə verdi…

*ardı 2-ci səhifədə*

# Naxçıvan:
## muxtariyyətdən respublikaya

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyinin Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb etdiyini nəzərə alan ölkə Prezidenti cənab İlham Əliyev 2023-cü il dekabrın 30-da Sərəncam imzalamışdır. Sərəncamda deyilir: *"2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur. Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır... Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir".*

Naxçıvan elə bir strateji ərazidə yerləşmişdir ki, həm qonşu, həm də böyük dövlətlərin həmişə maraq dairəsində olmuşdur. Ona görə də bu diyar çox çətin sınaqlarla qarşılaşmış və mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Xüsusilə XIX əsrin 20-ci illərində ermənilərin bu bölgəyə köçürülməsi yerli azərbaycanlıları faciələrlə qarşılaşdırmış və soyqırımına məruz qoymuşdur.

*ardı 6-cı səhifədə*

## Prezidentin mükafatlandırdığı Zərifəni siz də tanıyın



Azərbaycan Respublikası Prezidentinin 2024-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncamına əsasən elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənərək Prezident mükafatına layiq görülən gənclər arasında həmyerlimiz də var.

*ardı 4-cü səhifədə*


Ali Məclisin 2024-cü il yaz sessiyasının ilk plenar iclası keçirilib 2
Qəhrəman torpağın qəhrəman gəncləri 3
Titrəməsin nəfəsiniz, ucalsın daim səsiniz... 4
Bir əsrlik muxtariyyətin 87 yaşlı şahidi 9
Naxçıvanın ən uzunömürlü ailəsi 10

# Onun izi ilə Onun yurduna

## Ümummilli Lider Heydər Əliyevin doğulduğu Naxçıvan torpağından təəssüratlar





*(əvvəli 1-ci səhifədə)*

Ötən il "Şərq qapısı" qəzetində "2023-cü il Heydər Əliyev İlidir" rubrikası altında dərc edilən bir yazı çoxları kimi, mənim də diqqətimi çəkdi. "Dünənimizə, gələcəyimizə işıq tutan, dahi ömrünə şahidlik edən isti ocağın manifesti" başlıqlı reportaj Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda Ali Məclisin Sədri olarkən yaşadığı mənzilə həsr edilmişdi. Müəllifi qəzetin gənc jurnalisti Məcid Rəşadətoğlu olan bu yazı ilə tanışlıqda öyrəndim ki, dahi rəhbərin uşaqlığı və gənclik illəri bu məhəllədə, bu mənzildə keçib. İndiki Səməd Mövləvi küçəsində. Hazırda evdən çəkilmiş unikal fotoşəkillər, məqalədə yer alan maraqlı məqamlar, dahi rəhbər haqqında qeyd olunan xatirələr artıq Naxçıvana səfər etmək üçün çox yaxşı fürsət idi…

***Xeyir-duan üstümüzdə, ruhun sonsuz göylərdədir…***

Qeyd edim ki, Azərbaycanın hər bir bölgəsinin özünəməxsus tarixi, qədimliyi, milli-mənəvi dəyərləri vardır. Bəşəriyyətin ikinci həyat tapdığı Naxçıvan isə tarixin özüdür, yaşıdıdır... Elə bu məqamdan, Naxçıvana etdiyim səfərin təfsilatına çox da yer vermədən mövzumuza davam etmək istəyirəm. Hər şeyə elə oradan – dahi liderin doğulduğu, ata evinin yerləşdiyi məhəllədən başlamaq istəyirəm. Sakinlərin dediyinə görə, bu məhəllə Naxçıvan şəhərinin tarixi yaşayış yerlərindən biridir. Elə möhrədən tikilmiş əksər evlərin hələ də mövcud olması bunu bir daha sübut edir. Ümummilli Liderin doğulduğu, boya-başa çatdığı bu məhəllə və ev barəsində isə bizə ətraflı məlumatı hələ Ulu Öndərin sağlığında mühafizə xidmətində işləmiş, indi isə tarixi binaya bələdçilik edən Səyyad əmi verir.

Çox vaxt itirmədən ilk olaraq Ulu Öndər Heydər Əliyevin ata həyətinə – ikimərtəbəli və bir zirzəmidən ibarət olan, fasadı ağ mərmərlə örtülmüş evə daxil oluram. Çox qəribə, bir o qədər də həyəcanverici hissdir. Sanki bir ali ruhun müşayiəti ilə bu evi gəzib-dolanıram.



Evin birinci mərtəbəsində gözoxşayan antik əşyalarla dolu qonaq otağı qarşılayır bizi. Səmimi aura, qədimliyin və sadəliyin hopduğu bu məkanda dahi rəhbərin xatirə fotoları, hər gün qarşısına keçib izlədiyi televizor və daha nələr… Həmçinin otağa daxil olduğumuz anda baş tərəfdə yer alan hündür saat da, xüsusilə diqqəti cəlb edir. Düşünürəm: kim bilir, bəlkə də, Ulu Öndər neçə gərgin, xalqın taleyini həll edən qərarların verildiyi gecələrdə bu saata baxıb. Səhər açılanda xalqını necə qarşılayacağını, nə edəcəyini, hansı qərarlara imza atacağını düşünüb… Saatın yanındakı güzgülü şkafın üzərində isə Ulu Öndər Heydər Əliyevin gənclik illərində və bu evin həyətində çəkilmiş bir neçə



fotosu yer alıb. Çox maraqlı, bir o qədər də unikal şəkillərdir…

Yan otaqda isə balaca kitabxana yerləşir. Dahi rəhbərin xatirələrindən də məlum idi ki, O, kitab oxumağı çox sevirdi. Dünya klassikləri, Azərbaycan ədəbiyyatının sevilən qələm sahibləri, şairləri, yazıçıları, dramaturqları…Hər birinin yaradıcılığına yaxşı bələd idi Ümummilli Lider.

Dəhlizlə irəliləyib ikinci mərtəbəyə çıxırıq. Burada bizi iç-içə bir neçə otaq qarşılayır. Ən axırıncı otaq Ulu Öndərin iş otağıdır. Ümummilli Lider xalqımızın taleyüklü məsələlərinin bir çoxunu bu otaqda həll edib. Otaqda yazı masası və bir böyük kitab rəfi də yerləşir. Kitab rəfində sıra ilə düzülmüş müxtəlif mövzularda kitablar, xüsusən də Azərbaycan və dünya tarixinə aid kitablar üstünlük təşkil edir. Axı dahi rəhbərin özü də tarixçi idi…

Rəfə göz gəzdirərkən Səyyad əmi kitablara işarə edib deyir: "Rəhmətlik ən adi, kiçik bir tədbirə belə getsə, mütləq bu kitabları vərəqləyərdi, oxuyardı, nə isə qeydlər aparardı. Heç vaxt evdən hazırlıqsız çıxmazdı. Ailədə, yoldaşlıqda səmimi, gülərüz, mehriban olduğu qədər, işində də məsuliyyəti və ciddiliyi sevərdi. Allah rəhmət eləsin…"

Masa üzərindəki qələmlik və telefon da öz sadəliyi ilə seçilir. Otağın içərisindəki bir digər yanaşı otaq isə Ulu Öndərin yataq otağıdır.

Qısa, lakin mənalı, maraqlı ev gəzintisini yekunlaşdırıb yenidən həyətə çıxırıq. Geriyə dönüb baxarkən bu mənzildə, bu həyətdə bir zamanlar dahi Heydər Əliyevin yaşadığını, Onun səsinin, gülüşünün əks-səda verdiyini düşünəndə insanı qəribə hisslər bürüyür. Başqa cür də ola bilməz... Həyətin bir tərəfini əhatə edən meyvə ağacları, Ulu Öndərin saatlarla tamaşa etdiyi hovuz, həyətdə hər gün axan təmiz Naxçıvan suyu çox mətləblər danışır bizə, çox xatirələrə işıq tutur…Bu evdə Ümummilli Liderin əlinin toxunduğu hər bir əşyaya toxunmaq, Onun keçdiyi dəhlizlərdən keçmək, bütün sadalədıqlarımızla muzeydə olduğu kimi, şüşə altından yox, məhz canlı surətdə təmasda olmaq... Bu hissi ancaq yaşayanlar bilər, sözlə ifadə etmək isə çox çətindir...



Artıq ayrılmaq vaxtı çatıb. Səmimi qonaqpərvərliyə, danışdığı maraqlı xatirələrə görə Səyyad əmiyə, xüsusən də bu tarixi və həmişəlik yaddaşımda qalacaq ekskursiya üçün "Şərq qapısı" qəzetinin müxbiri Məcid Rəşadətoğluya, çəkdiyi maraqlı fotoşəkillər üçün qəzetin fotomüxbirinə təşəkkürümü bildirirəm. Naxçıvana səfərim qısa olsa da, mənə bir çox xatirələr qazandırdı. Ən əsası bir daha aydın oldu ki, xilaskar liderin doğulduğu bu Vətəndə Azərbaycan xalqının minillik dəyərləri hələ də qorunur, yaşadılır. Onlar xalqımızın irsi milli sərvətlərinə, ən əsası dahi rəhbər Heydər Əliyev ideologiyasına, Azərbaycançılıq xəttinə böyük diqqətlə, ehtiramla yanaşır. İllərdir, öz ehtişamı ilə qorunan bu ev, xalqımızın hər bir nümayəndəsinə doğma olan bu ocaq, sadalanan şirin xatirələr söylədiklərimizin əyani sübutudur. İllər keçsə də dahi şəxsiyyətin əziz xatirəsi hər birimizin qəlbində yaşayacaqdır.

**Ruslan QASIMOV**
***Qərbi Azərbaycan İcmasının Gənclər Birliyinin sədr müavini, "Cəmiyyətin və Medianın İnkişafı" İB İdarə Heyətinin üzvü***

## Ali Məclisin 2024-cü il yaz sessiyasının ilk plenar iclası keçirilib

Fevralın 1-də Ali Məclis sədrinin müavini Anar İbrahimovun sədrliyi ilə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının ilk plenar iclası keçirilib.

Anar İbrahimov sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ali Məclisin sədr müavini bildirib ki, ötən il Ali Məclisin fəaliyyətinin qurulması istiqamətində mühüm işlər görülüb. Muxtar respublikada həyata keçirilən tədbirlərin qanunvericilik səviyyəsində dəstəklənməsi üçün lazımi tədbirlər həyata keçirilib və payız sessiyasının son iclasında ilin yekunları, həmçinin qanunvericilik fəaliyyəti barədə ətraflı məlumat verilmişdi. Bu sessiyada da Ali Məclisin fəaliyyəti səmərəli olacaq.

Anar İbrahimov diqqətə çatdırıb ki, yaz sessiyası və il ərzində əsas mövzulardan biri Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı tədbirlər olacaq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il dekabrın 30-da "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Ali Məclisin bununla bağlı xüsusi iclası keçiriləcək. Yubiley münasibətilə digər önəmli tədbirlərin təşkil edilməsi də nəzərdə tutulur. Bu sessiyada qanun layihələri müzakirə edilməklə yanaşı, Konstitusiyanın tələbinə uyğun olaraq Nazirlər Kabinetinin hesabatı dinləniləcək. Bundan əlavə, Naxçıvan



Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında məsələ müzakirəyə təqdim ediləcək. Həmçinin sessiyada İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) illik hesabatı da dinləniləcək. Bu sessiyada Ali Məclis Azərbaycan Respublikası Konstitusiyası ilə və Ali Məclisin Daxili Nizamnaməsində müəyyən edilmiş qaydada ölkə parlamentində qanunvericilik təşəbbüsü ilə, xüsusilə büdcə qanunvericiliyinin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı çıxış edəcək.

Ali Məclisin funksionallığını artırmaq üçün bu təşəbbüslərin əhəmiyyətini qeyd edən Anar İbrahimov bildirib ki, Ali Məclisin deputatları, orqanları və Aparatı bu işdə ciddi dəstək olacaq.

Ali Məclis sədrinin müavini parlamentin yaz sessiyasının yüksək səviyyədə keçəcəyinə əminliyini ifadə edib, deputat həmkarlarına uğurlar arzulayıb və iclasın gündəliyini diqqətə çatdırıb.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik işləri planının təsdiqi
2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılması
3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması

Deputat Elman Cəfərli çıxış edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Naxçıvanın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlərdən danışıb və bu gün bu siyasətin uğurla davam etdirildiyini diqqətə çatdırıb. Deputat "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" və "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamları bu istiqamətdə atılan mühüm addımlar kimi dəyərləndirib.

Gündəlikdə duran birinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib



ki, Ali Məclisin fəaliyyəti qanunvericilik işləri planı əsasında qurulur. Daxili Nizamnaməyə əsasən növbəti sessiyanın ilk iclasında qanunvericilik işləri planı təsdiq olunmalı və Ali Məclisin iclasları bu plana uyğun keçirilməlidir. Bununla əlaqədar qərar layihəsi hazırlanıb və deputatlara təqdim edilib.

Sonra "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının qanunvericilik işləri planı haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

İclasın gündəliyində duran ikinci və üçüncü məsələlərə bağlı Ali Məclisin sədr müavini qeyd edib ki, Daxili Nizamnaməyə əsasən 2024-cü il Ali Məclisin yaz sessiyasının birinci iclasında Hesablayıcı və İntizam komissiyaları yaradılmalıdır. Həmin komissiyalar Ali Məclisin deputatlarından 1 il müddətinə 5 üzvdən ibarət tərkibdə seçilir.

Müzakirə olunan məsələlərlə bağlı hazırlanmış "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılması haqqında" və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarları oxunduqdan sonra ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Qəbul olunmuş qərarlarla deputatlardan Əmir Babayev, Günel Vəliyeva, İsa Məmmədov, Turan Məmmədli və Ehtibar İsmayılov Hesablayıcı komissiyanın, Vüsalə Əliyeva, Ehtimad Məmmədov, Hüseyn Niftəliyev, Aidə Allahverdiyeva və Tofiq Babayev isə İntizam komissiyasının üzvləri seçiliblər.

Bununla da Ali Məclisin yaz sessiyasının ilk plenar iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Şərur rayonunun Vərməziyar kəndindən olan itkin şəhid leytenant, Murovdağ qartalı İbrahim Vəlizadənin əziz xatirəsinə həsr olunmuş tədbir keçirilib

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və torpaqlarımızın müstəqilliyi uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Baş leytenant İbrahim Vəlizadəyə həsr edilən videoçarx izləndikdən sonra ailə üzvləri onun haqqında xatirələrini bölüşüblər. Qeyd edilib ki, Şərur rayonunun Vərməziyar kəndindən olan şəhid leytenant İbrahim Vəlizadə 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşərək itkin düşüb. Şəhidin anası Xurşud Vəlizadə qeyd edib ki, İbrahim Vəlizadə müharibədən əvvəl Şəmkirdə "N" hərbi hissədə xidmət edib. Sentyabrın 26-da sonuncu danışığından sonra bir daha xəbər tutmayıblar. Ana bildirib ki, digər övladları və şəhidin yoldaşları ilə təskinlik tapmağa çalışır, amma onun geri qayıdacağına hər zaman ümid bəsləyir. Dövlətimizin oğlunun xatirəsinə göstərdiyi ehtiram və diqqət, təşkil olunan bu cür tədbirlər bütün şəhidlərə verilən dəyərin sübutudur.



İbrahim Vəlizadənin atası çıxış edərək övladının anım tədbirində iştirak edənlərə təşəkkürünü bildirib. Qeyd edilib ki, İbrahim üçün geniş axtarışlar aparılıb. Davam edən uzunmüddətli axtarışlar nəticə vermədiyindən ona şəhid statusu verilib. Şəhid statusu verildikdən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. Bildirilib ki, bu, şəhidə və onun ailəsinə göstərilən qayğının nümunəsidir.

Ali Məclisin deputatı Yeganə Məmmədova çıxışında 44 gün davam edən Zəfər yolundan bəhs edərək bu Qələbənin xalqımızın sıx birliyinin nəticəsi olmasını qeyd edib. Qəhrəmanlarımızın xatirəsinin əbədi olaraq qəlbimizdə yaşayacağını bildirib.Tədbirdə iştirak edən şəhid valideynləri və qazilər də şəhidlər haqqında öz fikirlərini səsləndirib.





Tədbirin bədii hissəsində Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin şagirdləri şeir səsləndirib, hazırlanan kompozisiya təqdim edilib. Sonda şəhidlərə həsr olunan mahnı səsləndirilib, xatirə şəkli çəkilib.

**"Şərq qapısı"**



## Nazirlər Kabinetinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən yanvar ayının ikinci 15 günü ərzində bir sıra qərarlar qəbul edilmişdir.

Nazirlər Kabinetinin 19 yanvar 2024-cü il tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında" Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən heyvanlar aləminin obyektlərindən istifadəyə görə ödəmələr və qeyri-qanuni vəhşi heyvan ovuna görə tətbiq edilən cərimələr müvafiq olaraq, Naxçıvan Muxtar Respublikası ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fonduna və ya xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondlarına keçirilir.

Nazirlər Kabinetinin 22 yanvar 2024-cü il tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin işçilərinin say həddi cəmi 195 ştat vahidi olmaqla Nazirliyin Aparatının işçilərinin say həddi 65, Dövlət Maliyyə Nəzarəti İdarəsinin işçilərinin say həddi 25, yerli bölmələrinin işçilərinin say həddi 98, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin işçilərinin say həddi isə 7 ştat vahidi müəyyən edilmişdir.

Nazirlər Kabinetinin 29 yanvar 2024-cü il tarixli "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin muxtar respublika ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nın təsdiq edilməsi" haqqında təsdiq edilmiş və "Naxçıvan Muxtar Respublikasının avtomobil yollarında nişanlanma xətlərinin ölçülərinin müəyyən edilməsi haqqında" Qərarı ləğv edilmişdir.

Nazirlər Kabinetinin 30 yanvar 2024-cü il tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aparatının, Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin və Sədərək Rayon Su Monitorinq Laboratoriyasının ştat cədvəllərinin təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı İdarəsinin yaradılması və nazirliyin tabeliyindəki bəzi qurumların ştat cədvəllərinin təsdiq edilməsi haqqında", "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında", "Bir sıra təşkilatların, publik hüquqi şəxslərin və səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan bəzi hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında" qərarlarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatına "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti", "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı və Biomüxtəlifliyin Qorunması İdarəsi" daxil edilmişdir.

***Nazirlər Kabinetinin mətbuat xidməti***

# Qəhrəman torpağın qəhrəman gəncləri

Bu gün fəxr hissi ilə deyirik ki, Azərbaycan gənci ona olan ümidləri hər sahədə doğruldur. Onlar Azərbaycan Bayrağını dünya arenasında keçirilən yarışlarda yüksəyə qaldırmaqla kifayətlənməyib. 200 ildir, alnımıza yazılan məğlub xalq sözünü də silib, bayrağımızı Şuşada, Xankəndidə dalğalandırdı. Onlar illər öncə düşmən zülmünə məruz qalan insanların qisasını alıb, gələcək nəsillərə bütöv Azərbaycan ərməğan etdilər. Azərbaycanın son 30 illik tarixində Ulu Öndər sevgisi ilə yetişən gənclər dünya tarixinə yeni bir səhifə açıb, zamanın axışını dəyişdilər. Bu yolda canlarını qurban verdilər, sağlamlıqlarını itirdilər, amma yollarından dönmədilər. Qarabağda düşmən güllələsi ilə dayanan ürəklər, illərdir, doğmalarının həsrəti ilə yanan Şuşanın ürəyinə təpər verdi, nuru itən gözlər sönən çırağımızı alovlandırdı, Vətən yolunda itən əllər Qarabağın əllərinə güc, fəda olan ayaqlar yeriməyə qüvvət verdi. Qarabağ fatehi adını qazanan igidlərdən bir neçəsi həmsöhbətimizdir.

Baş leytenant ***Əmrah Məmmədov*** özü haqqında məlumat verərək bildirdi ki, 2009-cu ildə Heydər Əliyev adına Hərbi Liseyə, oranı bitirdikdən sonra 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, buranı nailiyyətlə bitirib. 2020-ci il sentyabr ayının 27-də kəşfiyyat taborunun xüsusi təyinatlı qrup komandiri olaraq Füzuli rayonu, kənd Horadiz istiqamətindən döyüşə qatılıb. Gənc zabit qeyd edir ki, həmin istiqamətdə ayağından yüngül qəlpə yarası alıb, 3-4 gün hospitalda qaldıqdan sonra öz istəyi ilə təkrar döyüşə qatılıb. Cəbrayıl, Qubadlı rayonları uğrunda gedən döyüşlərdə oktyabr ayının 20-də ağır yaralanaraq hospitala təxliyə olunub. Əmrah əlavə edir: – Müharibədə hər birimiz gözüyumulu döyüşə atılır, bir ovuc torpaq təki azad olsun deyə, canımızı qurban deyirdik. Müharibə qələbə ilə bitəndə aldığımız qəlpə yarası bizi incitmir, qürur verirdi. Artıq 4 ildir ki, torpaqlar azaddır və biz qürur duyuruq dövlət tərəfindən təmin edildiyimiz avtomobili idarə edəndə, mənzilimizdə yaşayanda, təltif olunduğumuz orden və medalları sinəmizdə daşıyanda.



Ehtiyatda olan baş leytenant ***Şakir Babayev*** də sağlamlığını Vətənə qurban verən igid oğullardan biridir. Onun söhbəti:



– 30 ilə yaxın idi ki, torpaqlarımız erməni işğalındaydı. Harada dünyaya gəlməyimizin, harada böyüyüb boya-başa çatmağımızın fərqi yoxdur. Naxçıvan da bizimdir, Şuşa da, Laçın da, Xocalı da. Vətənin bu başı, o başı yoxdur. O dərd hamımızın idi, hamımız da bir olub bu yaraya məlhəm olduq.

Vətən müharibəsinin iştirakçısı olub düşmənin illərdir, möhkəmləndirdiyi mövqelərini dağıdıb torpaqlarımızı düşməndən azad etdik. Bu cümləni tələffüz etmək belə insana qürur yaşadır. Hələ ki, orada olub "İrəli" əmrini gözləyib düşməndən təmizlənən yurd-yuvamızı bir-bir görəndə yaranan sevinci sözlə ifadə etmək çox çətindir. Bayrağımızın o torpaqlarda dalğalandığını görmək, oraya ayaq basmaq hər birimizin uzun illərdir, arzusu, həsrəti idi. Artıq bitdi o həsrət. Bitirdik... Biz bir olduq birləşdik və düşmənə qalib gəldik. Ermənilərin dağılmaz, keçilməz sədd adlandırdığı ohanyan xəttini cəmi bir neçə saata yarıb, ilk qələbəni əldə edib onların 30 ildə qurduğu bütün istehkamları dağıtdıq. Mifi sonlandırdıq.

***Oruc Salmanov*** Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusudur. O, Vətən yolunda sağlamlığını fəda edib, Zəfər yolunu Şuşada tamamlayıb "dəmir yumruğ"un bir parçası oldu. Onunla söhbətimizdə dedi:



– Hərbçi olmaq uşaqlıq arzum olub. Ordu sıralarına daxil olan gündən ən böyük arzum Şuşaya çatmaq, o şəhər uğrunda döyüşlərdə iştirak etmək idi. Vətən müharibəsində Hadruta, oradan isə Daşaltıya qədər getdim və Şuşa əməliyyatında iştirak etdim. Mən xəyal belə edə bilmədiyim, Azərbaycanın incisi olan bir şəhərə qədəm qoydum. Orada Azərbaycanımızın üçrəngli bayrağının dalğalandığını görmək bizə qürur yaşatdı. Silahdaşlarımızdan bir neçəsi şəhidlik şərbətini içdi, qazi olanlarımız da oldu. Şuşa əməliyyatında iştirak etməyim həyatımın ən unudulmaz səhifəsi olaraq qalacaq. O uca dağların başında yerləşən şəhəri yüzlərlə düşməndən azad etmək xəyal kimi görünsə də, biz bunu bacardıq. O keçilməz meşələrdə saatlarla piyada, çiynimizdə silah, üstümüzdə ağır döyüş geyimləri dayanmadan, nəfəs almadan döyüşə-döyüşə gedirdik. Bəzən barmaqlarımızla torpağı cırmaqlaya-cırmaqlaya, bəzən isə bir kolun qanadından yapışa-yapışa çıxırdıq. Aramızda ələləri var idi ki, yaralansa da, dözür, hədəfə çatmağa can atırdı. Şuşaya çatanda təcrübəli zabitlərimizin və kəşfiyyatçılarımızın əvvəlcədən verdikləri məlumatların sayəsində istəyimizə nail olduq. Qaranlıq bir gecədə gözəl Şuşamızı düşmənin murdar nəfəsindən təmizlədik. Qürurun və sevincin sonsuzdur, çünki illərdir, həsrətində olduğumuz günə çatdı xalqımız. Sağ əlini Şuşa əməliyyatında itirən Oruc bildirir ki, dövlətimiz hər bir qazinin qayğısına qalır, o da mənzil və avtomobillə təmin edilib.

Hər kəsin dünyaya göz açdığı torpaq onun üçün əzizdir. İnsan suyu, çörəyi ilə böyüdüyü torpağı sevir, hər kəs öz tutduğu mövqedə Vətəninə xidmət etməyə çalışır: müəllim savadlı kadr yetişdirməklə, şair yurdunu vəsf etməklə, yazıçı gözəllikləri qələmə almaqla, hərbçi isə torpağının hər daşını, qayasını qorumaqla. Bu gün Vətəni qorumaq kimi şərəfli bir vəzifə daşıyan hərbçilər Vətənin məğrur gəncləri adını daşıdıqları üçün fəxr edirlər.

**Ramiyyə ƏKBƏROVA**

# Gəncliyimiz gələcəyimizdir



## Titrəməsin nəfəsiniz, ucalsın daim səsiniz...

Gənclik. Bir neçə hərfdən ibarət, ilk baxışdan sadə görünsə də, dərin məna kəsb edən bu söz nələrdən xəbər verir, nələr danışır? Gəlin onun mənasına varıb, səsinə qulaq asmağa çalışaq içdən, dərindən. Gənciksə həyatımıza, bu günümüzə edək nəzər, qədir-qiymətin bilək bu növcavan çağlarımızın, var gücümüzü sərf edək elm, sənət yolunda, oxuyaq, öyrənək hər gün daha çox, daha artıq. Oxumaqla – öyrənməklə yetinməyib, bilik-bacarıqlarımızı tətbiq etməyə, təcrübə qazanmağa səy göstərək. Yaşlıyıqsa xatirələr qanadına əyləşərək uçaq ötən fəsillərə, övladlarımızı, nəvələrimizi də qonaq aparaq unudulmaz anlarla dolu o fəsillərə, aşılayaq gəncliyin necə tapılmaz, ələ düşməz nemət olduğunu, təlqin edək dünyada ən ağıllı işin gənclikdə qazanılan elmdir fikrini...

Müdriklərin "...Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir", "Cavanlıq həyatda zaman vahidi deyil, düşüncə tərzidir", "Gəncliyi anlamayacağımız an dünyadakı işimiz bitmiş deməkdir" kimi hikmətli sözlərin mahiyyətinə vara-vara sağlam ruhla, əqidəylə çalışaq həyat amalımız, məqsədimiz yolunda. Ömrümüzün təravətli, güllü-çiçəkli, xoş rayihəli illərini nəbadə keçirək hədər, örnək, nümunə götürək zəkası, bacarığı, əzmi, mübarizliyi ilə ailəsinin, məmləkətinin adını ucalara qaldıranlardan. Dinləyək gəncliyin coşqusunu, səs verək həmyaşıdlarımızın səsinə. Ən ali kürsülərdən, yüksək mərtəbələrdən, orta, ali təhsil ocaqlarından ucalır bu səs-sədalar, olimpiadalarda, yarışlarda qazanılan uğurlarla pərvəriş tapır, bədii söz, mütərəqqi düşüncə qoxulu kitabxanalarda, kitab mağazalarında, "Səyyar kitabçılar"da, "Kitablardan pıçıltılar"da öz fəlsəfi dəryasının dərinliyinə enir, "Hərəmiz bir ağac əkək" kimi aksiyalarla təbiəti qoruyur, yaşıl dünya naminə həmrəylik göstərir, sağlamlığın rəhninə çevrilir gənclik. Dünyanın dörd bir yanında, neçə-neçə diaspor təşkilatlarının sıralarında parlayır, Azərbaycan həqiqətlərini hayqırır, tanıdır ölkəmizi, təbliğ edir milli dəyərlərimizi, yaşatdırır ana dilimizi, mədəniyyətimizi, tariximizi...

Keçmişə ehtiramda, tarixi kökə bağlılıqda, ənənəyə sadiqlikdə, ağsaqqal nəsihətinə, ağbirçək öyüdünə hörmətdə-izzətdədir nümunəvi gənclik. Azərbaycanın müstəqilliyi yolunda atılan addımlarla məğrurlaşıb, tükülən qanlarla müqəddəslik məqamını fəth eləyib, 20 Yanvar, Xocalı faciələrində xalqımızın mübarizlik simvoluna çevrilib, SSRİ kimi nəhəng imperiyaya qarşı qətiyyət, iradə göstərib. Gənclik Azadlıq meydanında həmrəylik nümayiş etdirən minlərlə qəlbdən qopan "Azadlıq!" hayqırtısı ilə göylərə ucalıb, yerə səpilən müstəqillik toxumunda, o toxumdan boy atan qollu-budaqlı "bütöv Azərbaycan" adlı çinardadır. Görkəmli dövlət xadimi Heydər Əliyevin sovet ideologiyasının buxovlarına baxmayaraq, yüksək vəzifəsindən imtina edərək canı bahasına da olsa, öz doğma Vətəninə qayıdaraq cücərməkdə olan müstəqilliyi qoruması yolunda, xilaskarlıq missiyasına verilən dəstəkdə, Milli Qurtuluş, nicat yolundadır...

100 yaşlı muxtariyyət salnaməsinin səhifələrindən boylanır gənclik istəyi, həvəsi, duyğusu, qəhrəmanlıq rəmzimiz Sədərək döyüşlərində Naxçıvanın hər bir bölgəsindən cəbhəyə axışan yurdsevər 17, 18, 19 yaşlı igidlərin son damla qanlarınadək vuruşmasında, "Təki Vətən yaşasın!" mübarək amalında, top mərmilərindən deşik-deşik olan evlərdə körpə fidanların, yeniyetmələrin ölməz inamında, ümidində, mərmi yağışına rəğmən elm ziyası bəxş etməyindən qalmayan Sədərək məktəbində çalışan fədakar müəllimlərin əməyindədir. İki qardaşı ayrı salan "sərhəd" dirəklərini qışın şaxta, çovğununa rəğmən tar-mar edən gənclərin həsrət alovlu əllərində, inam dolu qəlblərində, Sədərək-Dilucunu salan ürəklərdə, diləklərdə, illərdir, bir-birinə həsrət qalan iki gəncin vüsal yeri – "Ümid" körpüsündədir gənclik əzmi, dəyanəti...

2020-ci il sentyabrın 27-də əmrə müntəzir, doğma ata-baba torpaqlarını qaytarmaq üçün irəli atılan oğulların nərəsində, keçilməz sədləri keçən, yarılmaz cəbhələri yaran iradədə, düşməni lərzəyə salan "dəmir yumruq"dadır gənclik. Təkbaşına onlarla ermənini məhv edən Mübarizin cəsarətində, dumanlı dağların başında duran Xudayarın döyüş yoldaşlarını irəli səsləyən Vətən həsrətli yanıqlı səsində, tək əliylə düşmənin canını boğazından çıxaran Cəbrayılın intiqamlı baxışlarında, Pərviz, İslam, Tağı kimi yüzlərlə igidimizin 44 gündə al qanları ilə yazdıqları qəhrəmanlıq dastanındadır. 23 saata qondarma rejimin belini qıran qətiyyətdə, şücaətdə, mülki şəxs canından olmasın deyə göstərilən nəzakətdə, insanlıqda, vicdanda, ləyaqətdədir Azərbaycan gəncliyi. Füzulidə, Cəbrayılda, Laçında, Şuşada, Xankəndidə üçrəngli bayrağımızı ucaldan dəmir biləklərdə, "Şəhid olsam ağlamayın, başınızı dik tutun", – deyən müqəddəs əhdlərdə, "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarında, "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" mübarək kəlamındadır. Hər bir sahəyə yeni nəfəs, yeni həvəs gətirən könüllülük hərəkatında, xəstələrə şəfa vermək amalı ilə keçirilən qanvermə aksiyalarında, bütöv, qüdrətli Azərbaycanın təhlükəsizliyi, aydın sabahları naminə gecə-gündüz keşik çəkməkdə, çalışqanlıqda, innovativ, intellektual düşüncədə, yenilikçi ideyadadır gənclik ruhu. Titrəməsin nəfəsiniz, ucalsın daim səsiniz, ey Azərbaycan gəncliyi. Gününüz mübarək, güclü Azərbaycanın güclü gəncləri...

**Nail ƏSGƏROV**



## Prezidentin mükafatlandırdığı Zərifəni siz də tanıyın

*(əvvəli 1-ci səhifədə)*

Mükafata layiq görülən Məhərrəmova Zərifə Hüseyn qızı Naxçıvan şəhərində doğulub. Şərur şəhər 2 nömrəli tam orta məktəbi bitirib. Zərifə Məhərrəmova ADA Universitetində Beynəlxalq əlaqələr ixtisası üzrə bakalavr təhsili alıb. O eyni zamanda ADA Universiteti və BERGAMO Universitetinin "MaRTE" II səviyyə peşəkar səviyyə artırma proqramını başa vurub. O həm də Sankt-Peterburq Dövlət Universitetinin İctimai siyasət və qlobal idarəçilik fakültəsini magistr dərəcəsi üzrə bitirib.

Gənclər siyasəti və gənclərlə iş sahəsi üzrə kifayət qədər geniş fəaliyyət dairəsində çalışan Zərifə Məhərrəmova COP28 İqlim Konfransı və ECOSOC (BMT-nin İqtisadi və Sosial Şurası) Gənclər Forumu çərçivəsində paralel yan tədbirin ideya müəllifi və təşkilatçısı, BƏƏ-də COP28 İqlim Konfransında UNICEF, BMT-nin Uşaq Fondu tərəfindən təşkil edilən yan tədbirin, Bosniya və Herseqovinada BMT-nin Əhali Fondu (UNFPA) tərəfindən təşkil olunan Beynəlxalq Forumun, BMT Gənclərin İqlim Sammitinin Azərbaycan təmsilçisi və çıxışçısı olub. O eyni zamanda Azərbaycan və ingilis dillərində çap edilən "Azərbaycan BMT Model Hərəkat" jurnalının ideya müəllifi və qurucusudur.

Həmyerlimizə gələcək fəaliyyətində uğurlar arzulayırıq.

## Zərrə-zərrə əldə edilən nailiyyətlər gələcəyimizin təminatıdır

*Bu gün bütün sahələrdə texnologiyanın sürətli inkişafı günün tələbidir. Ya bu texnoloji yeniliklərlə ayaqlaşmalı, ya da satirik şairimiz Mirzə Ələkbər Sabirin dedikləri ilə razılaşmalıyıq: "Dindirir əsr bizi – dinməyiriz".*



Günümüzdə texnologiya sahəsində elə sürətli tendensiya ilə inqilabi yeniliklər baş verir ki, bu bir çoxlarımızı təəccübləndirməyə bilməz. Buna görə də əksər hallarda fəaliyyət göstərdiyimiz sahədən asılı olmayaraq, modern texnologiyaya bələdliyimiz əsas şərtlərdən birinə çevrilir. Elə bu günün tələbəsi, gələcəyin həkimi olan Naxçıvan Dövlət Universitetinin III kurs Tibb ixtisasının tələbəsi Əli Ələkbərli kimi.

Bizim Əli ilə münasibətimiz 2021-ci ildən başlayıb. Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında çalışdığım dönəmlərdə mütəmadi kitabxanadan istifadə edən savadlı və olduqca potensiallı gənclər müşahidə olunurdu. Əli bu gənclərdən bir az başqa istedadları ilə fərqlənirdi.

Əli 2004-cü il iyunun 6-da Şahbuz rayonunda sadə bir ailədə dünyaya göz açıb. İbtidai sinfə Badamlı kənd tam orta məktəbində başlasa da, VII-IX sinfləri Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə başa vurub. Daha sonra Badamlı kənd tam orta məktəbində təhsilini davam etdirən Əli 2021-ci ildə 550 balla Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Tibb ixtisasına qəbul olub. V sinifdən kompüterlə işləməyə böyük həvəsi yaranan Əlinin zaman keçdikcə bu sahədə araşdırmalara marağı daha da artıb.

Hələ 2020-ci ildə, orta məktəbin XI sinfində oxuyarkən Naxçıvan Muxtar Respublikası üzrə keçirilən fənn olimpiadalarında kimya fənnindən II yerin qalibi olub Əli.

2022-ci ildə Azərbaycanda ilk dəfə baş tutan tullantıların azaldılması və təkrar emalı üzrə "Recylacton" hakatonunda Naxçıvan Muxtar Respublikasından yarımfinal mərhələsinə vəsiqə qazanan komandada ideya, layihə konseptinin qurulması və software proqramçısı olaraq iştirak edib, 197 komanda arasından seçilərək Azərbaycan üzrə II yerə layiq görülüb. O eyni zamanda robotex Türkiyə, regional final yarışmasında səhiyyə texnologiyaları üzrə Azərbaycanı təmsil edən yeganə komandada developer və layihələrin qurulmasında vacib rol oynayıb və nəticədə, layihə I yerin qalibi olub.

Azərbaycanda keçirilən Enactus proqramının, beynəlxalq 1R40 yarışı üzrə ideya və prototipləşdirmə layihəsi "ZeroPolliten" Azərbaycandan yeganə olaraq bir sonrakı mərhələyə seçilən 12 layihədən biri olub.

Əlinin müəllifi olduğu, "Naxçıvan Muxtar Respublikasında Şahbuz rayonunun təbii su qaynaqlarının mikrobioloji və biokimyəvi qiymətləndirilməsi" və ortaq müəllifi olduğu "Adi badam bitkisinin çiçək tozcuqlarında flavonoid miqdarının spektrofotometrik təhlili və biomarkerlərin müəyyənləşdirilməsi" elmi məqalələri yerli və xarici nüfuzlu elmi jurnallarda nəşr edilib.

2023-cü ildə keçirilən Gənc Alimlərin və Tibb Tələbələrinin Beynəlxalq Konqresində Tibbi innovasiya məqaləsinə görə mükafat alıb və Çində keçirilən İpək Yolu ölkələrinin iştirak etdiyi tədbirdə biomühəndislik və innovasiyalar sahəsi üzrə verdiyi layihə ölkəmizi təmsil edən yeganə layihə olub.

2023-cü il 19-22 avqust tarixlərdə Çinin Chonqing şəhərində bakalavrların IX Beynəlxalq Təməl Tibb Fənlərində İnnovasiya və Eksperimental Dizayn Forumunda Əli öz layihəsi olan "Səhiyyə sistemi üçün innovasiya – yeni model simsiz EKQ" mövzusunda çıxış edərək II yerə layiq görülüb və gümüş sertifikat qazanıb.

O, *gt.nsuenactus.com* və I Beynəlxalq Tibb Forumunun *globalmedforum.com* saytını, həmçinin *inkisafqapisi.info* və Azərbaycanda ilk oxu qeydiyyat platforması olan *kitablardanpiciltilar.com* veb-saytını hazırlayıb. O həmçinin Naxçıvan Dövlət Universitetinin "Ebook" mobil aplikasiya platformasını hazırlayıb ki, bu platformada Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalı yer alan multifunksional platformadır. Platforma onlayn və oflayn oxuma, yaddaşa qənaət xüsusiyyətlərinə görə Azərbaycan universitetləri arasında bir ilkdir. Həmçinin o, Naxçıvan Dövlət Universitetinin tələbələri olan Elsun Cəfərov və İslam İsmayılov ilə birlikdə hazırda test mərhələsində olan yeni nəsil EKG Lot idarə sistemli cihazı hazırlayıb.

Əlinin vitse-prezidenti olduğu Naxçıvan Dövlət Universitetinin "Enactus" komandası 2023-cü ildə "Enactus Azərbaycan" Milli Yarışında iştirak edib. Həmin komanda Azərbaycan üzrə I yerin qalibi olub və oktyabr ayında Niderland Krallığının Utrext şəhərində keçirilən çempionatda Azərbaycanı təmsil edib.

Biomühəndislik və tibbi genetika sahəsinə həddən ziyadə maraq göstərən Əlinin uğurları bitib-tükənmək bilmir. O hər gələn sabaha keçən dünənindən daha da mətin addımlarla sonsuz qapılar açır. Biz də ümid edirik ki, Əli Türk dünyasının fəxri, Nobel mükafatçısı Əziz Səncərin arxasınca, arzu etdiyi sahələrdə yeniliklərə imza ataraq Azərbaycanın, yaşadığı Naxçıvan torpağının qürur mənbəyi olacaq.

**Fariz ƏHMƏDOV**



# 100 ilin qəhrəmanları

*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində bir şəhid anasının övladı haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Culfa rayonunun Saltaq kəndindən olan şəhidimiz Amin Gülməmmədovun anası İntizar Gülməmmədovanın və Ordubad rayonunun Sabirkənddən olan şəhidimiz Ülvü Hüseynovun anası Ülkər Hüseynovanın övladları haqqında xatirələri yer alıb.*



## Amin Mayis oğlu Gülməmmədov

(31.07.1995-02.11.2020)



### Hara qismətimdirsə, orada da Vətənə xidmət edəcəyəm

Amini çox yaxşı övlad kimi tanıyırdılar qonşuları, müəllimləri. Çox diqqətli idi. Lap balaca vaxtından üzümüzə baxıb fikrimizi bilərdi. Amin əkiztayı olub. Qardaşı Ramindən sonra dünyaya gəlsə də, qardaşı



onu özünə böyük bilirdi. Təkcə bizə qarşı deyil, hər kəsə qarşı həssas idi Amin. Parodiya etməyi sevirdi. Deyirdim ki, Amin sən ya aktyor, ya da jurnalist ol. Gülərək cavab verirdi ki, ana, yaxşı. VIII sinfi bitirəndə gəlib dedi ki, ana, mən sənədlərimi hərbi liseyə verdim. Dedim ki, bəs mənə söz vermişdin? Dedi: "Ana müəllimimə söz vermişdim ki, mən hərbçi olacağam".

Məktəbdə oxuduğu dövrdə "Cəsurlar", "Şahinlər" hərbi-idman oyunlarında qardaşı ilə iştirak etdilər. Sonra onları Bakı şəhərinə göndərdilər. Həmin yarışda da Naxçıvanı təmsil edərək III yerə çıxdılar. Elə o vaxtdan hərbiyə marağı daha da artdı.

Hərbi liseyi bitirib Hərbi Akademiyaya daxil oldu. Dedim ki, Amin, sənin təyinatını bura – Naxçıvana istəyək. Cavab verdi ki, ana, yox, hara qismətimdirsə, orada da Vətənə xidmət edəcəyəm. Təyinatı Füzuliyə oldu. Orada xidmətə başladı.

Müharibə vaxtı danışırdıq. Deyirdim ki, Amin, özündən muğayat ol. Deyirdi ki, ana, narahat olma, mən arxadayam. Sən başını dik tut. Müharibə bitsin, səni buraya gətirəcəyəm. Amma oğlum mənə arxadayam dediyi vaxt səngərdə imiş. Mənimlə zarafat edirmiş. Deyirdi ki, səni səngərdə saxlayacağam. Sən mənim bir dənə anamsan.

Müharibə başladı. İki gün sonra bacısının oğlu dünyaya gəldi. Zəng vurub dedi ki, yuxuda görmüşəm. Adını Əli qoyun. Biz də uşağın adını Əli qoyduq.

Sonuncu dəfə noyabrın biri danışdıq. Mənimlə çox sevinə-sevinə danışdı. Dedi ki, ana, Şuşa görünür. Sayılı günlərimiz qalır. Darıxma, hər şey yaxşı olacaq. Gəlib evlənəcəyəm. Amma qismət olmadı. Aminim şəhid oldu. Aminim Vətən, Torpaq oldu!

## Ülvü Möhsün oğlu Hüseynov

(16.04.1988 – 08.11.2020)



### Qorxu bilməyən igid

Bir ana kimi Ülvünün dünyaya göz açan gündən indiyə qədər hər anı gözlərim qarşısındadır. Balaca vaxtların-dan çox qoçaq idi. Qorxu nədir bilməzdi. İlanı əlində gəzdirərdi. Mənim 1992-ci ildə bir qardaşım şəhid olub. Atasına deyirdi ki, sən də dayım kimi olsaydın torpaqlarımızı alardınız. Ülvünün hərbçi olmağını istəmirdim. Amma o, sözündən dönmədi. İstədiyi kimi hərbçi də oldu. Düzdür, indi elə övlad böyütməyimlə şükür edirəm ki, qazandığımız qələbədə az da olsa, mənim də payım var. Amma qəhrəmanımı itirdim.



O qədər zarafatcıl, gülərüz idi ki, ifadə edə bilmirəm. Bir gün şəhid yasından gəlirdim. Zəng vurdu mənə. Açdım telefonu, danışdıq. Dedi, ana nə edirsən. Dedim, oğul, şəhid yasından gəlirəm. Dedi, durma tez get evə, atam evə kimisə gətirib. Demə, məndən əvvəl atası ilə danışıb. Atası da deyib ki, evdə qonağımız var. Zarafat etmək üçün tez mənə zəng vurub. Evə çatdım. Çatan kimi zəngi gəldi ki, ana, özünü çatdıra bildinmi? Ehtiyatlı ol, ha. Bax belə zarafatcıl idi. Müharibədə belə öz zarafatlarından qalmırdı. Atası deyirdi ki, elə bil heç müharibədə deyil.

Balaca vaxtı quzu otarardı. Aparmışdı quzuları otarmağa. Quzuları ötürüb, gedib futbola. Başı futbola qarışıb, quzunun birini itirib. Mən də heç nə demədim. Səhəri dedim ki, Ülvü, quzumuzun biri yoxdu. İnanmadı. Getdi saydı gördü ki, həqiqətən də, quzunun biri yoxdu. Gəlib dedi ki, ana hər kəs uşağına qurban kəsir. Elə bil ki, bunu da sən mənə qurban kəsmisən. Heç vaxt yalan danışmazdı.



Balaca vaxtından pul qazanmağın yolunu bilirdi. Girib çayda balıq tuturdu. Aparıb satıb, yol pulunu və xərcliyini çıxarırdı. Heç kəsə əziyyət verməzdi.

Bir sözlə, Ülvü mənim qəhrəmanım idi. O öz canını bu Vətənə qurban verərək xalqının da qəhrəmanı oldu!

*Doğulduğu torpaqdan yüzlərlə kilometr uzaqda "Öncə Vətəndir", – deyib canından keçən, şəhadət şərbəti içən Elçin İbrahimlinin məzarı başında düşüncələr.*

*Əfsanəyə dönən ömürlər*

## Dastana çevrildi Elçin oğullar

Soyuq bir qış səhəridir, işə tələsirəm, amma onun əbədi məskənini ziyarət etmədən Şərur şəhərindən çıxmaq istəmirəm. Şərur Şəhidlər xiyabanında məzarı başında dayanmışam, elin arzularını çin edən, özü isə qəhrəmanlıq dastanına çevrilən Elçinimizin. Başı üstə ucalan bayrağa, məzar daşından boylanan gülən gözlərinə baxdıqca yada salıram onun uşaqlığından əbədi məskəninə kimi uzanan qısa olsa da, şərəfli yolu. Sanki məni dinləyirmiş kimi danışıram onunla.

Sən dünyaya gələndə adını Elçin qoyub, arzuların çin olsun demişdi anan. Sevinərdi sən boy atdıqca. Boyuna qurban deyib, dalınca su atardı hər qapıdan çıxanda. Ayaq tutub yeriyəndə, ilk kəlmən ana olanda sevinci dünya boyda olmuşdu. Sən təkcə ananın yox, hamımızın da sevimlisi idin. "Hərbçi olmaq istəyirəm", – deyib özün sənədlərini öz əlinlə hazırlayıb aparmışdın hərbi liseyə. İllər tez-tez keçirdi. Sən böyüyüb, komandirlər məktəbini bitirib leytenant oldun. Gülən gözlərinə, yaraşıqlı simana, boy-buxununa elə yaraşırdı ki, hərbi forma. "Ən böyük arzuma çatdım, ikinci arzum isə Şuşanı azad etməkdir", – dedin. Özün də yaxşı bilirdin ki, bu arzu həm də özünə şəhidlik arzulamaqdır. Sən o qədər sevirdin ki, bu Vətəni. Vətən müharibəsində hər kənd, hər şəhər azad olduqca sevincin yerə-göyə sığmırdı. Qələbəni qazandığımız gün arzumun birinə çatdım, ikincisi qaldı deyəndə ananın göz yaşları yanağına süzüldü. Nişanlı idin axı anan toy hazırlığı görürdü. Toy xınanı hazırlayıb, sənə bəy otağı bəzəmişdi. Aynurun gözünün ilki, bircə oğul payı idin axı. "Ağlama, ana, mən özümə ölümsüzlük arzulayıram", – dedin. Anan nə qədər tələssə də, toy etməyə imkan vermədin. "Qardaşlarımın yasını tutur anaları, onlar kəfən geyindi, mən necə bəy paltarı geyinim", – dedin.

Aylar sonra toyunu görməyi qismət elədi Tanrı bizə. Ananın sevincinin həddi-hüdudu yox idi. Haradan bilərdik ki, bəy paltarı geyinib, çiyninə üçrəngli, ay-ulduzlu bayrağı salıb bəy kürsüsünə oturduğun gündən iki il sonra o bayrağa bürünüb, çiyinlərdə qayıdacaqsan bəy otağına. İndiyə kimi Elçin deyib səslədiyimiz, canımızın bir parçasına şəhid deyə xitab edəcəyik. Haradan bilərdik ki, bəy otağın sənin xatirə muzeyinə dönəcək. Körpə səsi eşitməyi arzuladığımız evdən, balasına layla deyən ana səsi ucalacaq. Haradan bilərdik, Tanrı sənin şəhid olmaq arzunu bizim sənin üçün olan arzularımızdan tez qəbul edəcək. Adının əvvəlinə möhürlənən şəhid sözü ilə anılacaqsan daha. Arzusunda olduğun kəlmə ilə. Ağlımıza da gəlməzdi ki, sənin ruhun əbədiyyət, sülh göyərçini olub azad Vətənimizin səmasında qanad çalanda iki il öncə bəy karvanının keçdiyi küçəmizdən sənin şəhid karvanın keçəcək.

Hər dəfə xidmət yerindən Naxçıvana gələndə özünlə dünya boyda sevinc aparırdın. Gedərkən "Gözünüz yolda qalmasın", – deyirdin. Qayıdanda dünya boyda dərdlə qayıtdın. Ananın yollara dikilən gözlərinə əbədi həsrət çökdü, bacının dilində qardaş kəlməsi dondu. Gedərkən dünya boyda sevinc aparmışdın özünlə, qayıdanda Vətən bayrağına bələnib gəldin. Özünün dediyin kimi qəhrəman kimi qayıtdın.



İndi hər gün şəhadətindən bir neçə saat öncə çəkilmiş fotoların, özünə şəhidlik arzuladığın, "Gedib şəhid olaram", – dediyin videoçəkilişlərinə baxıram. Səsin qulağımdan getmir. Gedib şəhid olaram kəlməsini elə ürəklə deyirsən ki. Vətəni anandan, əlinin xınası getməyən yarından, təkcə bacından çox sevən, igidim. Mən şəhid olum Vətən yaşasın, şəhid ucalığı bəxş elə Allah, qüdrət qələminlə elə yaz ki, bəsirət gözüylə oxuna bilim, deyən oğul.

Bəlkə, günün birində sənin həsrətinlə yanan ürək dayanacaq, ağlayan gözlərin yaşı quruyacaq, amma sən bu Vətən yaşadıqca yaşayacaqsan, öz cavan canını, xəyallarını, arzularını Vətənin bir qarışına qurban edən oğul.

Nə deyim sənə, elin, torpaq azad olsun arzusuna öz arzularını fəda edib çin edən Elçin. Daha nə deyim sənə, şəhidim. Torpağı canından əziz bilib, mən şəhid olum, təki Vətən yaşasın deyən, şəhidim. Yaşayacaq bu Vətən, çünki sənin kimi oğulları var. Yaşayacaq bu Vətən, çünki yarını Vətənə qurban versə də, mətanətini itirməyən ismətli gəlinlərimiz, sənin kimi igidlər böyüdən Azərbaycan anaları var.

**Ramiyyə ƏKBƏROVA**

# MUXTARİYYƏT 100

# Naxçıvan: muxtariyyətdən respublikaya

(əvvəli 1-ci səhifədə)

***Rusiya hadisələri və bunun Cənubi Qafqaza təsiri***

XX əsrin əvvəllərində Rusiya imperiyasının dağılması, siyasi həyatda yeni müstəqil dövlətlərin yaranması Naxçıvan diyarının da taleyində dərin izlər buraxmışdı. Rusiyada çarizm devrildikdən sonra imperiyanın əksər əyalətlərində olduğu kimi, Naxçıvan diyarında da ikihakimiyyətlilik meydana gəlmişdi.

Fevral inqilabı keçmiş Rusiya imperiyasının bütün ərazilərində, o cümlədən Naxçıvanda da tamamilə yeni siyasi şərait yaratdı. 1917-ci il martın 9-da diyarda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə verildi. Bu Komitə Cənubi Qafqazda mülki işləri idarə etmək üçün təsis edilmişdi, ancaq qanunvericilik hüququna malik deyildi.

Naxçıvan, Culfa və Ordubad şəhərlərində Müsəlman və Erməni Milli komitələri yaradıldı. Bu komitələr faktiki olaraq yerli idarəetmə funksiyalarını yerinə yetirməyə başladılar. Eyni zamanda onlar öz silahlı qüvvələrini yaratmaq məqsədilə əhali arasında fəal iş aparırdılar.

1917-ci il noyabrın 11-də qərar qəbul edildi ki, Müəssislər Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün Zaqafqaziya hökuməti yaradılsın. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı.

Zaqafqaziya Komissarlığının yaradılması ilə Naxçıvanın inzibati idarəçiliyində əsaslı dəyişiklik baş vermədi. Diyarda Zaqafqaziya Komissarlığının müvəkkilliyi fəaliyyət göstərsə də, yerlərdə əsas hakimiyyət yenə də Milli Komitənin əlində idi. Naxçıvan şəhərində isə Qarışıq Komitə fəaliyyət


Kazım Qarabəkir paşa


Behbud ağa Şahtaxtinski

göstərirdi.

Ərzincan barışı imzalandıqdan sonra (1917, 18 dekabr) rus qoşunları Cənubi Qafqazı, eləcə də Naxçıvanı tərk etdi. Onların malik olduqları silah-sursatı erməni daşnakları ələ keçirdi.

Yaranmış şəraitdən istifadə edən ermənilər öz qonşularından torpaqlar qoparmağa çalışırdılar. Ermənilərin bu niyyətlərində Naxçıvan torpaqlarının ələ keçirilməsi ilk planda idi. Bu məqsədlə 1918-ci ilin əvvəllərindən başlayaraq daşnakların silahlı dəstələri Naxçıvana basqınlar etmiş, çox sayda dinc əhalini öldürmüşdü.

Osmanlı komandanlığı ermənilərin törətdikləri vəhşiliklərin davam etdirildiyini daşnaklara xatırladıb türk ordusunun müsəlmanların öldürüləcəyi təqdirdə, sadəcə, müşahidəçi olmayacağını bildirdi. Türkiyə silahlı qüvvələrinin Qafqaz ordusunun Baş komandanı Mehmet Vehib paşa öz ordusuna hücum əmri verdi. Osmanlı ordusunun bütün cəbhəboyu irəli




ləməsi fevralın 23-də Zaqafqaziya Seyminin açılmasına kimi davam etdi. 1918-ci il fevralın 23-də Zaqafqaziya Komissarlığının əvəzinə yeni orqan – Zaqafqaziya Seymi yaradıldı. Həmin il aprelin 22-də Zaqafqaziya Seymi müstəqil Zaqafqaziya Federativ Respublikasının yaradılması haqqında qərar qəbul etdi. A.Çxenkelinin başçılığı altında 12 nəfərdən ibarət yeni hökumət yaradıldı.

**Cənubi Qafqazda müstəqil dövlətlərin yaranması**

Cənubi Qafqaz bölgəsində baş vermiş hadisələr, son nəticədə, Zaqafqaziya Federasiyasının süqutu və üç müstəqil dövlətin – Azərbaycan, Gürcüstan və Ermənistan (Ararat) respublikalarının yaranması ilə nəticələndi. Azərbaycanın müstəqil dövlət elan edilməsi Naxçıvan əhalisində müəyyən ümidlər yaratdı. Naxçıvan diyarının qarşılaşdığı problemləri həll etmək və çətinlikləri aradan qaldırmaq üçün istər yerli əhali və onun başçıları, istərsə də Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən müəyyən işlər görülmüş, ermənilərin ərazi iddialarının və etnik təmizləmə siyasətinin reallaşdırılması istiqamətində ilkin cəhdləri dəf edilmişdi.

Erməni tərəfin Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti aparmasına baxmayaraq, Azərbaycan Milli Şurası əzəli Azərbaycan şəhərini – İrəvan şəhərinin onlara paytaxt kimi güzəşt edilməsinə razılıq verdi. Azərbaycan hökuməti bu güzəştə getməklə Ermənistanın Azərbaycana qarşı torpaq iddialarından əl çəkəcəyini zənn edirdi. Bu "xeyirxahlıq" erməni tərəfini yeni-yeni ərazi iddiaları irəli sürməkdən çəkindirmədi. Ermənistan hökuməti bütün İrəvan quberniyasını, Qars vilayətini, Tiflis və Yelizavetpol quberniyalarının bir hissəsini özünün ayrılmaz hissəsi elan edərək əhalisinin 62,5 faizi azərbaycanlılar olan Naxçıvana da iddia etdiyini bəyan etdi.

Osmanlı dövləti nümayəndələri ilə Batumda aparılan danışıqlarda türk heyəti Azərbaycan torpaqları hesabına ermənilərin lehinə bir sıra ərazi güzəştlərinə gedərək İrəvan şəhərinin də daxil olduğu Yeni Bəyazid və Eçmiədzin bölgələrindən ibarət Ermənistan dövlətinin yaradılmasını təsdiqlədi. 1918-ci il 4 iyun tarixdə imzalanmış Batum müqaviləsinin şərtlərinə görə, Ermənistan Respublikası Cənubi Qafqazda 9 min kvadratkilometr ərazisi olan bir dövlət oldu.

1918-ci ilin may-iyun aylarında ermənilər və A.Ozanyanın başçılığı ilə erməni yaraqlıları Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətlərini daha da genişləndirdi. Erməni silahlı quldur dəstələri diyarda azərbaycanlı əhaliyə divan tutur, yaşayış məntəqələrini dağıdır, etnik təmizləmə siyasəti aparır, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vəhşi vasitələrə əl atır, Naxçıvanın ən yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə yalan məlumatlar yayır, bu yerlərin Ermənistanın bir hissəsi olduğunu iddia edirdilər.

***Türk hərbi heyətinin Naxçıvana gəlməsi və yeni idarəetmə sisteminin yaradılması***

Erməni daşnakları Naxçıvan qəzasının bir sıra kəndlərini və Culfanı işğal edən zaman – 1918-ci il mayın 17-də kapitan Xəlil bəyin başçılığı ilə türk hərbi heyəti Naxçıvana gəldi. O, bölgəyə gəldikdən sonra Naxçıvanı gözlənilən erməni təcavüzündən qorumaq üçün yerli gənclərdən könüllü hərbi dəstələr təşkil etməyə başladı.

Batum müqaviləsini əsas götürən Osmanlı dövləti qəti tədbirlər görməyə məcbur oldu. Türkiyə hərbi komandanlığı altında olan IX Orduya Naxçıvana kömək etməyi tapşırdı. IX Ordunun tərkibində olan XI Qafqaz diviziyası 1918-ci il iyulun əvvəlində erməni dəstələrini məğlub edərək Naxçıvan şəhərinə yaxınlaşdı. İyul ayının 20-21-də baş vermiş döyüşlərdən sonra şəhər erməni qüvvələrindən təmizləndi, Culfa isə azad edildi.

Naxçıvan bölgəsi türk qoşunlarının nəzarətinə keçdikdən sonra burada Osmanlı sisteminə uyğun inzibati idarəetmə sistemi yaradılmağa başlandı. Alay komandiri Sürəyya bəy qəza rəisi təyin edildi. Sürəyya bəyin əmri ilə Naxçıvan Milli Komitəsi ləğv edilərək yerində jandarm, ədliyyə və bələdiyyə idarələri yaradıldı. Jandarm komandanlığına Məmməd Əli xan, onun müavini Qəni bəy Vəzirov, Bələdiyyə İdarəsinin rəisi Cəfərqulu xan, üzvləri isə Hacı Abdulla Şeyxov və Tağı Nağdalıyev təyin edildilər. Ədliyyə məhkəməsinə isə Şeyx Kərim Axundzadə, Cabbar Kələntərov, Vəliağa Kəndlinski, Abbasqulu bəy Tahirov və İbrahim paşa Kəngərlinski təyin olundular. Bir müddət sonra ordunun Təbrizə getməsi ilə əlaqədar Sürəyya bəyin yerinə mayor Əli Şəfiq bəy təyin olunmuş, o isə, öz növbəsində, bir sıra inzibati dəyişikliklər etmişdi. Türk komandanlığı Naxçıvanda hərbi vəziyyət elan etdi, yerli əhalidən özünümüdafiə dəstələri təşkil edərək onlara hərbi təlim keçməyə başladı.

Birinci Dünya müharibəsində məğlub olan Osmanlı dövləti oktyabrın 30-da Mudros sazişini imzalamağa məcbur oldu. Müqaviləyə görə, Osmanlı dövləti Azərbaycanı, eləcə də Naxçıvanı ingilislərin himayəsinə verməli idi. Siyasi vəziyyət həddindən artıq çətin və mürəkkəb idi.

***Araz-Türk Cümhuriyyəti***

Noyabrın ilk günlərindən osmanlı qüvvələri Naxçıvanı tərk etməyə başladılar. Ordu komandanı Yaqub Şövqü paşanın teleqramında göstərilirdi ki, tərxis olunan ehtiyat zabitlərindən Naxçıvan bölgəsində yaradılan təşkilatda işləmək istəyənlər orada qala bilərlər, ancaq osmanlı forması geyinməsinlər. Alınan əmrə görə, Xəlil bəy və yoldaşlarının bir qrupu Naxçıvanda qalırdı. Türk ordusu Naxçıvandan çıxandan sonra bölgədə 5 zabit və 300 əsgər qaldı.

1918-ci il noyabrın 18-də Naxçıvan diyarını və ətraf əraziləri erməni daşnaklarının işğalından qorumaq üçün Araz-Türk Cümhuriyyəti yaradıldı. Araz-Türk Cümhuriyyətinin yaradılması təşəbbüsü ilə Naxçıvan, Şərur müsəlmanları çıxış etmiş və onların təklifi ilə ordubadlılar da bu siyasi tədbirə qoşulmuşlar. Araz-Türk Cümhuriyyətinin hakimiyyət strukturu formalaşdırılmış və Əmir bəy Nərimanbəyov hökumətin sədri seçilmişdi. Hökumətin tərkibi hərbi, maliyyə, inzibati, ədliyyə, xarici işlər, şeyxülislam və aşirətlər rəisindən ibarət idi. Xəlil bəy Türkiyə dövlətinin Araz-Türk Cümhuriyyətində hərbi müşaviri idi.

Araz-Türk Cümhuriyyətində dövlət, parlament və digər idarəçilik orqanları, 20 tabordan ibarət könüllü xalq dəstələri yaradıldı. Araz-Türk Cümhuriyyətinin sahəsi 8696 kvadratkilometr, əhalisi 1 milyon nəfərə çatırdı. Naxçıvan, Şərur-Dərələyəz, Ordubad qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və başqa ərazilər cümhuriyyətin tərkibində idi. General Veysəl Ünüvar yazmışdır ki, Ordubaddan Sürməliyədək olan torpaqlar da Araz-Türk hökumətinin ərazisinə daxildir. Cümhuriyyətin yaradılması məsələsi Qəmərlidə müzakirə edilmiş, sonra Naxçıvan şəhərində yaradılmışdı və paytaxtı da Naxçıvan şəhəri idi.

Respublika ərazisində milis idarələri, onların sahə şöbələri, taborlar (batalyonlar), süvari alayı yaradıldı. Araz-Türk Cümhuriyyətinin yaratdığı özünümüdafiə qüvvələri, süvari alayı yerli əhali ilə birlikdə diyarın və əhalinin təhlükəsizliyini, ərazinin qorunmasını, onun erməni işğalına düşməməsi üçün əzmlə mübarizə aparırdı.

Araz-Türk Cümhuriyyəti fəaliyyəti dövründə (18.11.1918-10.03.1919) Azərbaycan Xalq Cümhuriyyəti, Osmanlı dövləti, Cənubi-Qərbi Qafqaz Respublikası ilə əlaqələr yaratmış, Naxçıvan diyarını qoruyub saxlamışdır.

***İngilis və ABŞ hərbi qüvvələrinin Naxçıvana gəlməsi və ikili siyasətləri***

İngilis qüvvələri 1918-ci ilin noyabrında Bakıya, 1919-cu ilin yanvarında Naxçıvana gəldilər. Mudros müqaviləsinin şərtlərinə görə, Cənubi Qafqaz ingilislərin təsir zonasına daxil edilmişdi. Mayor V.Hibbon Naxçıvana gəldi, o, bölgədəki vəziyyəti öyrənmək istəyirdi. Əslində, ingilislərin Naxçıvana gəlməsində bir məqsəd də Araz-Türk Cümhuriyyətinin iqtisadi və siyasi vəziyyəti, silahlı gücü ilə tanışlıq, onun Osmanlı Türkiyəsinin hakim dairələri ilə münasibətlərinin səviyyəsini və xarakterini aydınlaşdırmaqdan ibarət idi. İngilislər burada general-qubernatorluq yaratdılar və diyarı Ermənistanın hakimiyyətinə vermək istəyirdilər. Onlar Naxçıvanı işğal etmək istəyirdilər. Araz-Türk Cümhuriyyətinə Türkiyə tərəfindən yaradılmış qurum kimi baxaraq onu tanımaq istəmədilər.

Ulu Öndər Heydər ƏLİYEV:

> "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq."

Milli Şuranın sədri Cəfərqulu xan 1919-cu il fevralın 26-da general-qubernator F.Lautenə məktub göndərərək bölgənin müsəlmanların iradəsinin əksinə olaraq Ararat (Ermənistan) Respublikasına verilməsinə etiraz edir. İngilislər bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, digər tərəfdən də daşnak Ermənistanının hakimiyyətinə verilməsi təklifini irəli sürürdülər. General Tomson erməni rəhbərlərinə təklif edirdi ki, Qarabağın və Zəngəzurun Azərbaycana verilməsini qəbul edərlərsə, Qars və Naxçıvanın onların nəzarəti altına keçməsinə kömək edəcəkdir.

1919-cu il iyulun əvvəllərində ingilis qoşunları Naxçıvanı tərk etməyə başlayanda Naxçıvan əhalisi erməni işğalçılarına qarşı mübarizəyə başladı. Ermənilərə qarşı vuruşan könüllülərin sayı 10 min nəfərə çatırdı. İrəvandakı səlahiyyətli nümayəndə M.Təkinski vasitəsilə Azərbaycan hökuməti naxçıvanlılara geniş siyasi, diplomatik və maliyyə yardımı göstərirdi.

Ermənilərin bölgədəki fəaliyyətinə son qoyulması ilə nəticələnən əsas hərbi hadisələr iyulun son günlərində baş verdi. Naxçıvan şəhəri ətrafında, Şahtaxtı, Yengicə və Noraşen stansiyalarında hərbi cəhətdən üstün olmalarına baxmayaraq, erməni qüvvələri məğlub edildilər, çoxlu silah-sursat, zirehli qatar ələ keçirildi. Xanlıqlar kəndi döyüşsüz alındı, 5 zabit, 95 əsgər əsir alındı, 600 tüfəng qənimət götürüldü. Düşmənin Vedidə möhkəmlənmək cəhdi baş tutmadı, ermənilər burada 4 min canlı qüvvə itirdi.


ПОСТАНОВЛЕНИЕ № 7 86
АЗЕРБАЙДЖАНСКОГО ЦЕНТРАЛЬНОГО ИСПОЛНИТЕЛЬНОГО КОМИТЕТА.
от 9 " Февраля 1924г.
О преобразовании Нахкрая в Нахичеванскую Социалистическую Советскую Республику.
Президиум Азербайджанского Центрального Исполнительного Комитета Советов постановляет:
1. Нахичеванский Край переобразовать в Нахичеванскую Социалистическую Советскую Республику под протекторатом АССР.
2. Для выработки проэкта положения о НССР создать комиссию в составе т.т. Велибекова, Багирова, Т.Шахбази и А. Ахундова, коей вменить в обязанность в недельный срок со дня опубликования настоящего постановления закончить разработку проэкта и представить на рассмотрение Президиума АзЦИКа.-
Зампредседателя [signature]
Секретарь АзЦИКа [signature]

Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri N.Yusifbəyli parlamentdəki çıxışlarında Naxçıvanın öz gücü ilə erməniləri məğlub edərək ərazidən qovduqlarını və Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi.

İngilislərdən sonra ABŞ hərbi qüvvələri də Naxçıvana gəlib burada "bitərəf, neytral zona" yaratmaq istəyirdi. 1919-cu il avqustun 22-də Paris konfransının Ermənistana Ali komissar təyin etdiyi polkovnik V.Haskel Ermənistandakı çıxışında daşnakların bu ərazilərə qarşı irəli sürdükləri iddialarını müdafiə etmişdi. Bakıda AXC rəhbərləri ilə görüşündə isə bölgənin Azərbaycanın idarəçiliyində saxlanacağını bildirmişdi.

V.Haskelin Naxçıvan və Şərur-Dərələyəz torpaqlarını əhatə edən "bitərəf zona" layihəsi AXC hökuməti tərəfindən qəbul edilmədi. Həmin layihəyə görə, yerli hakimiyyət orqanları Amerika qubernatoruna tabe olmalı idi.

V.Haskelin layihəsi əsasında Naxçıvanda general-qubernatorluğun yaradılması yerli azərbaycanlı əhalinin də kəskin etirazına səbəb oldu. Onların ABŞ nümayəndəsi ilə görüşməsində Naxçıvan, Şərur, Dərələyəz, Vedibasar və Milistan əhalisinin əksəriyyətinin Azərbaycan türkləri olduğunu, bu ərazilərin iqtisadi, siyasi, mədəni, strateji cəhətdən Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu və öz qanları ilə azadlıq qazandıqlarını nəzərə çatdırmışdı. Bunları nəzərə almayan V.Haskel polkovnik Edmond Dellini ərazinin general-qubernatoru təyin etdi. Naxçıvan rəhbərləri və ictimaiyyətin nümayəndələri bunu qəbul etmədiklərini amerikalı nümayəndələrə çatdırdılar və əhalinin ancaq Azərbaycan hökumətini tanıdığını bildirdilər.

Beləliklə, Naxçıvan əhalisinin inadlı mübarizəsi və Azərbaycan hökumətinin ciddi səyləri nəticəsində amerikalıların bölgəni "bitərəf zona"ya çevirmək və orada Amerika general-qubernatorluğu yaratmaq yolu ilə Naxçıvanı Azərbaycandan ayırmaq cəhdləri boşa çıxdı.

***Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrin möhkəmlənməsi***

Hadisələrin ən mürəkkəb vaxtında belə Naxçıvan əhalisi və rəhbərləri özlərini Azərbaycandan ayrı təsəvvür etmirdilər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1919-cu il 28 fevral tarixli Qərarı ilə Naxçıvan general-qubernatoru yaratmış və Bəhram xan Naxçıvanskini general-qubernator təyin etmişdi.

Araz-Türk Cümhuriyyəti AXC ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün yollar aramışdı. AXC qarşılaşdığı çətin vəziyyətə baxmayaraq, Araz-Türk Cümhuriyyətini müdafiə etmək üçün müəyyən tədbirlər görürdü. Azərbaycan hökuməti Naxçıvan əhalisinin iradəsini ifadə edərək bildirdi ki, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir və bu diyar milli hakimiyyət orqanları tərəfindən idarə olunacaqdır.

Naxçıvan bölgəsindəki vəziyyət Azərbaycan Xalq Cümhuriyyəti dövlətini və hökumətini ciddi surətdə narahat edirdi. 1919-cu il yanvarın 8-i və 25-də Naxçıvandakı vəziyyət Azərbaycan parlamentində müzakirə edilmiş, yanvarın axırlarında isə İrəvan Müsəlmanların Həmyerlilər Cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırov kömək üçün Araz-Türk Cümhuriyyətinə göndərildi. M.Mirbağırovun heyəti 23 və 25 fevralda hökumət üzvləri və nümayəndələrlə görüşdü. Müzakirələr zamanı Naxçıvanı Azərbaycana birləşdirmək barədə akt tərtib edildi. Akt siyasi, hərbi, iqtisadi, maddi və mənəvi məsələlərə aid bəndlərdən ibarət idi. Aktı hökumət üzvləri, Milli Şura üzvləri və əhalinin nümayəndələri imzaladılar və hökumət möhürü ilə təsdiq edildi.

M.Mirbağırov Naxçıvan səfərindən maraqlı nəticələr əldə etmiş və bu nəticələri Azərbaycan Nazirlər Şurasına təqdim etmişdi. Təkliflər Azərbaycan hökuməti tərəfindən nəzərə alındı. Azərbaycan hökuməti Naxçıvan bölgəsinin problemləri ilə sistematik məşğul olmağa başladı.

Martın 16-da Bəhram xan Naxçıvanskini general-qubernator vəzifəsində Ə.Haşımbəyov əvəz etdi.

Erməni işğalına son qoyulduqdan sonra bölgənin idarə edilməsində çox mürəkkəb vəziyyət yaranmışdı. Əslində, hakimiyyət üç qüvvənin: Azərbaycan hökumətinin bölgədəki nümayəndəsi – general-qubernator S.Cəmillinskinin, Türkiyənin hərbi nümayəndəsi Xəlil bəyin və Kalbalı xan və onun tərəfdarlarının əlində idi. Bölgənin ermənilərdən azad edilməsində onlar birgə mübarizə aparsalar da, hakimiyyət bölgüsündə, diyarın idarə edilməsində onlar arasında fikir ayrılıqları var idi. Bu ziddiyyətləri aradan qaldırmaq məqsədilə S.Cəmillinski Xəlil bəyi Naxçıvan qoşunlarının baş komandanı, rütbəsi artırılmış Kalbalı xanı isə onun köməkçisi, eyni zamanda Naxçıvan qoşun dəstəsinin komandiri təyin etmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədrləri olmuş F.Xoyski və N.Yusifbəyli imkanları daxilində Naxçıvan diyarına hərbi və maliyyə köməkliyi göstərir, onun Azərbaycanın ərazisi kimi qorunub saxlanılması üçün siyasi və diplomatik dəstək verirdilər.

***Naxçıvanda hərbi-siyasi vəziyyət və diyarın sovetləşməsi***

1920-ci ilin əvvəlində Naxçıvan ərazisində hərbi-siyasi vəziyyət yenidən gərginləşməyə başladı. Erməni daşnakları tərəfindən bütün sərhədboyu Naxçıvan diyarının Vedibasardan Ordubada qədərki ərazilərə hücum üçün hazırlıqlar görülür, nizami silahlı qüvvələr cəmləşdirilirdi. 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün daşnak Ermənistanı yeni cəhd göstərirdi. Naxçıvan rəhbərləri arasında birliyin olmaması vəziyyəti çətinləşdirirdi. Cavid bəyin xahişi, Kazım Qarabəkir paşanın qərarı ilə Naxçıvana Əli Teymur bəyin komandanlığı altında 50 nəfərdən ibarət yeni türk qoşun hissəsi gəldi. Kalbalı xanın, Ədib bəyin, Abbasqulu bəy Şadlinskinin başçılığı ilə yerli hərbi dəstələr erməni quldur dəstələrinə layiqli cavab verdilər və İrəvanın 8 kilometrliyinə çatdılar.

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti devrildi və bolşeviklər hakimiyyətə gəlməklə Şimali Azərbaycan sovetləşdirildi.

Erməni basqınlarından cana doymuş yerli əhali 1920-ci ilin iyulunda məktubla N.Nərimanova və Q.Orconikidzeyə müraciət etdi. Məktubda deyilirdi: *"Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur, Qırmızı ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik"*.

1920-ci il iyulun 28-də XI Ordu hissələri Naxçıvan şəhərinə daxil olur. Elə həmin gün bölgədə sovet hakimiyyəti elan olunur və M.Bəktaşi, A.Qədimov, F.Mahmudbəyov və başqalarından ibarət Naxçıvan İnqilab Komitəsi yaradılır.

1920-ci il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri M.Bəktaşi Azərbaycan SSR XKS-in sədri N.Nərimanova məktubla müraciət edir. Məktubda deyilirdi: *"Naxçıvan əhalisinin böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan SSR-in ayrılmaz hissəsi hesab edir..."*

***Sovet Rusiyasının ikili siyasəti***

Bu dövrdə Sovet Rusiyası yenə ikili siyasət yeridirdi. Bir tərəfdən erməni daşnak qüvvələri ilə müharibə aparır, digər tərəfdən isə onlarla danışıq aparırdı. Bu danışıqlarda Azərbaycanın iştirakı olmadan onun mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi də müzakirə olunurdu. Bunu bilən N.Nərimanov Leninə göndərdiyi məktubda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir..."

Sovet Rusiyası Ermənistanı öz tərəfinə çəkmək, öz nüfuz dairəsinə almaq üçün Azərbaycanın əzəli torpaqları olan Naxçıvan və


Əmir bəy Nərimanbəyov


Cəfərqulu xan Naxçıvanski

Zəngəzuru Ermənistana verməyi planlaşdırırdı. Bu yolla həm də Ermənistanı sovetləşdirmək istəyirdi. Sovet Rusiyasının Azərbaycanın bu bölgəsinə dair planlarını İ.Stalinin 1920-ci il noyabrın 9-da Bakıdakı çıxışında dediyi bu sözlər də təsdiqləyir: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada sovet hökuməti yaranarsa vermək olar".

İ.Stalinin bu fikri özünü çox gözlətmədi. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

Ermənistanın bolşeviklərin nəzarəti altına keçməsi ilə əlaqədar Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. HİK-in sədri N.Nərimanovun imzası ilə yayılan bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: "... Bundan sonra heç bir ərazi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir". Bu qərarı AK (b) P Mərkəzi Komitəsi qəbul etmişdi, N.Nərimanov bunu, sadəcə, bəyan etmişdi.

**(ardı var)**

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

7 fevral 2024-cü il – növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri günüdür

# Prezident seçkiləri – 2024

Azərbaycan Respublikası vətəndaşlarının seçkilərdə iştirakı azad və könüllüdür. Seçkilərdə və ya referendumda iştirak edib-etməməyə məcbur etmək məqsədilə heç kəsin Azərbaycan Respublikası vətəndaşına təzyiq göstərmək hüququ yoxdur və heç kəs onun öz iradəsini azad ifadə etməsinə mane ola bilməz.

***Hörmətli seçicilər!***

Siz səs vermək üçün aşağıdakı sənədlərdən birini təqdim etməlisiniz:

• Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi;

• Azərbaycan Respublikası vətəndaşının müvəqqəti şəxsiyyət vəsiqəsi.

➢ Qaçqın və ya məcburi köçkün vətəndaşlar Azərbaycan Respublikasının ərazisində səsvermə zamanı yuxarıda göstərilən şəxsiyyətlərini təsdiq edən sənədləri yoxdursa, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən müəyyənləşdirilmiş formalı vəsiqədən istifadə edirlər.

➢ Azərbaycan Respublikasının ərazisində azı 5 il daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində səsvermə zamanı vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsindən istifadə edirlər.

➢ Həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular, zabitin şəxsi vəsiqəsi və ya hərbi biletdən istifadə edirlər.

➢ Barələrində həbs növündə qətimkan tədbiri seçilərək istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin MQİBİ tərəfindən verilmiş təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəddən istifadə edirlər.

➢ Azadlıqdan məhrumetmə yerlərində və xüsusi müəssisələrdə cəzaçəkən məhkumlar Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin MQİBİ tərəfindən verilmiş məhkumun şəxsiyyətini təsdiq edən sənəddən istifadə edirlər.

**Seçkilər günü səsvermə saat 8-dən 19-a kimi keçirilir**

Seçkilər günü saat 7[50]-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini açıq elan edir, seçki komissiyasının üzvlərinə, orada olan seçicilərə, müşahidəçilərə boş seçki qutularını göstərib kilidləyir, saat 8[00]-da səsvermənin başlandığını elan edir.

Məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan vətəndaşların şəxsiyyət vəsiqələrini və ya şəxsiyyəti təsdiq edən digər sənədləri, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözə görünməyən maye ilə əvvəl işarələndiyini yoxlayır və içəri daxil olmağa icazə verir. Bu cür işarələnmə müəyyən edilərsə, seçiciyə seçki bülleteni verilmir. Məntəqə seçki komissiyasının digər üzvü seçicinin adının seçici siyahısında olduğunu yoxlayır və ona seçki bülleteni verir.

**Barmağının maye ilə işarələnməsindən imtina edən seçiciyə seçki bülleteni verilmir**

Seçici razılaşmadıqda ondan seçki məntəqəsini tərk etmək tələb edilməlidir.

Bu barədə seçici siyahısında "işarələnmədən imtina etdi" qeydi aparılır. Seçici razılaşarsa, seçicinin sol əlinin baş barmağı işarələnir.

Seçiciyə seçki bülleteni şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd təqdim edildikdə verilir. Seçici seçki bülletenini aldıqdan sonra seçicilər siyahısına şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası və nömrəsi yazılır. Təqdim olunmuş şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası və nömrəsi seçicilər siyahısına məntəqə seçki komissiyasının üzvü tərəfindən qeyd edilir. Seçici yazıların düzgünlüyünü yoxlayır və bülleteni alarkən imza edir.

**Seçicinin seçki bülletenini sərbəst almaq imkanı olmadıqda o, məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər istisna olmaqla başqa şəxslərin köməyindən istifadə edə bilər**

Seçiciyə kömək edən şəxs öz soyadını və inisialını göstərməklə seçici siyahısında "seçicinin seçki bülletenini alması haqqında imza" qrafasında imza etməlidir.

**Seçki bülleteni seçiciyə verilərkən onun nömrələnmiş sol küncü məntəqə seçki komissiyasının üzvü tərəfindən kəsilmə xətti boyunca kəsilir və özündə saxlanılır**

Hər bir seçici şəxsən və təklikdə səs verir. Başqa şəxslərin əvəzinə səs verməyə icazə verilmir. Seçki bülleteni seçicidən başqa heç kəsin daxil olmasına icazə verilməyən, gizli səsvermə üçün xüsusi avadanlıqla təchiz edilmiş otaqda və ya kabinədə doldurulur. Seçki bülletenini müstəqil yazıb doldurmaq imkanı olmayan əlil seçici məntəqə seçki komissiyasının üzvlərindən və müşahidəçilərdən başqa, istədiyi şəxsi kömək üçün otağa və ya kabinəyə çağıra bilər. Bu şəxsin soyadı və inisialı seçicilər siyahısında seçki bülleteni alınması barədə seçicinin imzası ilə birgə göstərilir.

Seçici doldurulmuş seçki bülletenini səsvermə üçün nəzərdə tutulmuş seçki qutusuna salır.

**Seçki qutuları məntəqə seçki komissiyası üzvlərinin və müşahidəçilərin maneəsiz müşahidə edə bildikləri yerdə qoyulmalıdır**

Məntəqə seçki komissiyasının sədri səsvermə yerində qayda-qanuna nəzarət edir. Onun sərəncamları səsvermə otağında olan şəxslər üçün məcburidir. Məntəqə seçki komissiyasının sədri seçki məntəqəsində olmadıqda onu məntəqə seçki komissiyasının katibi və ya komissiyanın bu vəzifələr həvalə olunmuş üzvü əvəz edir.

Səsvermədə seçici kimi iştiraketmə halları istisna edilməklə dövlət orqanlarının vəzifəli şəxslərinin olması qadağandır.

Hüquq-mühafizə orqanlarının işçiləri məntəqədə asayişin bərpa edilməsi məqsədilə məntəqə seçki komissiyasının sədri tərəfindən seçki məntəqəsinə dəvət oluna bilərlər və öz vəzifələrini icra etdikdən sonra seçki məntəqəsini dərhal tərk etməlidirlər.

**Seçicinin öz iradəsini ifadə etməsinə təsir göstərməyə cəhd edən və ya gizli səsverməni pozan məntəqə seçki komissiyasının üzvü müvafiq akt tərtib edilməklə işindən kənarlaşdırılır**

Hüquq-mühafizə orqanının işçisi səsvermə zamanı səsvermə otağında olduqda səsvermə dayandırılır. Səsvermə zamanı asayişi bərpa etmək 6 saatdan artıq mümkün olmazsa, dairə seçki komissiyasının qərarı ilə seçki məntəqəsi bağlanır. Belə seçki məntəqələrində səsvermə etibarsız sayılır.

**Seçici seçki bülletenini doldurarkən səhv etdiyini bildirərsə, ona seçki bülleteni vermiş məntəqə seçki komissiyası üzvündən korlanmış seçki bülleteninin əvəzinə yeni seçki bülleteni verməsini xahiş edə bilər**

Bu halda seçki komissiyasının üzvü korlanmış bülleteni ortadan kəsməklə ləğv edir, ayrıca zərfə qoyur, seçiciyə yeni bülleten verir və seçicilər siyahısında seçicinin soyadından sağda müvafiq qeyd edir. Bu barədə dərhal ayrıca akt tərtib olunur.

Məntəqə seçki komissiyası bütün seçicilərə, o cümlədən səhhətinə görə səsvermə otağına gələ bilməyən seçicilərə səsvermədə iştirak etmək imkanı yaratmalıdır. Bu məqsədlə seçki məntəqəsində bir daşınan seçki qutusu olur. Seçici səsvermə otağından kənarda səs vermək istəyini əvvəlcədən yazılı surətdə və ya məntəqə seçki komissiyası üzvlərinin yanında ərizə yazaraq bildirə bilər. Seçici seçki bülleteni aldığını ərizəsində qeyd edir və imzası ilə təsdiqləyir. Bu zaman ərizədə şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi qeyd olunur.

Səsvermə otağından kənarda səsvermə elə təşkil edilməlidir ki, vətəndaşın seçki hüquqları, gizli səsvermə və ya seçicinin öz iradəsini ifadə etməsi qaydaları pozulmasın.

**Saat 19[00]-da məntəqə seçki komissiyasının sədri səsvermənin başa çatdığını ucadan elan edir**

Səsvermənin başa çatdığı elan edildikdən sonra yalnız səsvermə otağında olan və seçki bülleteni almış seçicilərə səsverməni başa çatdırmağa icazə verilir. Bu zaman təmin olunmalıdır ki, yalnız bu elanadək səsvermə otağında növbəyə dayanmış seçicilər səs versin, səs verdikdən sonra isə seçki məntəqəsini tərk etsin.

Səsvermə başa çatdıqda məntəqədə məntəqə seçki komissiyasının həlledici və məşvərətçi səs hüquqlu üzvləri, akkreditasiyadan keçmiş müşahidəçilər, qeydə alınmış prezidentliyə namizədlər və onların səlahiyyətli nümayəndələri, vəkil edilmiş, siyasi partiyaların, siyasi partiya bloklarının səlahiyyətli nümayəndələri, vəkil edilmiş şəxslər və müvafiq lövhəciyi olan mətbuat nümayəndələri ola bilərlər.

## *"Vətəndaşların seçki hüququnun təmini"* mövzusunda maarifləndirmə tədbiri keçirilib



Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Mərkəzi Seçki Komissiyasının (MSK) birgə əməkdaşlığı çərçivəsində növbədənkənar prezident seçkiləri ilə əlaqədar keçirilən tədbiri giriş sözü ilə açan Ombudsman Səbinə Əliyeva vətəndaş və siyasi hüquqların daha səmərəli təmini və müdafiəsi sahəsində ardıcıl işlərin görüldüyü, seçki hüquqlarının təmini vəziyyətinin daim diqqətdə saxlanıldığı və seçki qanunvericiliyi, seçki prosedurları barədə geniş məlumat verib. Ombudsman çıxışında bildirib ki, ilk dəfə olaraq bu seçkilər suveren Azərbaycanın bütün ərazilərində keçiriləcək. Azərbaycan tarixi ədaləti bərpa etdikdən sonra keçirilən bu seçki tarixə yazılacaq. Seçkidə prioritet hüquqlardan olan seçki hüququnun təmini önəmlidir. Demokratiyanın əsas göstəricisi olan seçki sisteminin inkişafı üçün maarifləndirici yöndə silsilə tədbirlər təşkil olunub. Eyni zamanda seçki günü Ombudsman Aparatına daxil olan müraciətlər araşdırılacaq. Ombudsman Aparatının əməkdaşları, həmçinin seçki məntəqələrində, hərbi hissələrdə, cəzaçəkmə məntəqələrində də müşahidələr aparacaqlar.

Ombudsman Səbinə Əliyeva əlilliyi olan insanların seçkilərdə iştirakı üçün seçki məntəqələrində panduslarırın quraşdırıldığını, sağlamlıq imkanları məhdud şəxslərin seçki hüququnun təmini məsələsinin zəruriliyini də diqqətə çatdırıb.

Növbədənkənar prezident seçkiləri ərəfəsində Mərkəzi Seçki Komissiyası tərəfindən görülən işlər barədə danışan Mərkəzi Seçki Komissiyasının üzvü Hüseyn Paşayev nəzərə çatdırıb ki, Mərkəzi Seçki Komissiyası seçki prosesləri ilə bağlı silsilə maarifləndirici tədbirlər təşkil edir. Xüsusilə də seçicilər üçün "ASAN növbə" terminallarında "Seçici statusunu yoxla" adlı funksional bölmənin əlavə edildiyi diqqətə çatdırılaraq bildirilib ki, bölmə vasitəsilə vətəndaşlar adlarını seçici siyahısında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər.

Dəyirmi masada çıxış edən Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı vətəndaşların seçki hüququnun təmini və müdafiəsi istiqamətində təsisat tərəfindən müvafiq işlərin görüldüyünü, Mərkəzi Seçki Komisssiyası ilə birgə Bakı şəhəri və digər regionlarda birlikdə silsilə maarifləndirmə tədbirlərinin keçirildiyini bildirib.

Aydın Səfixanlı "Müşahidəçilik institutunun əhəmiyyəti və Ombudsmanın bu prosesdə rolu" barəsində danışaraq seçki prosesi zamanı müşahidəçilik institutunun tətbiqinin əhəmiyyəti, onun seçki prosesində aşkarlıq və ədalətlilik prinsiplərinin, habelə seçki hüququnun daha səmərəli təmininə xidmət etdiyini bildirib. Bu institutun seçki prosesi zamanı yarana biləcək çatışmazlıqların aradan qaldırılmasındakı rolunun əhəmiyyətinə toxunub, Ombudsman təsisatının müşahidəçilik təcrübəsi barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva çıxış edərək bildirib ki, Müvəkkil təsisatı tərəfindən muxtar respublikada vətəndaşların seçki hüququnun müdafiəsi və təmin edilməsi ilə bağlı vəziyyət öyrənilib, eləcə də müvafiq dövlət qurumları ilə birgə silsilə maarifləndirmə tədbirləri təşkil edilib.

Tədbir müzakirələrlə davam edib.

✍ **Ceyhun MƏMMƏDOV**

## Seçki dairələri bülletenlərlə təmin olunub



7 fevral – növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının üzvləri, Katibliyin əməkdaşları, eləcə də müvafiq dairə seçki komissiyalarının sədrləri və katiblərinin də iştirakı ilə yanvarın 30-da Milli Məclisin mətbəəsində seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb. Elə həmin gün əvvəlcədən də nəzərdə tutulduğu kimi, bülletenlərin Naxçıvan Muxtar Respublikasındakı seçki dairələrinə təhvil verilməsi başa çatdırılıb. Dairə seçki komissiyaları sədrlərindən aldığımız məlumata görə, muxtar respublikadakı 6 seçki dairəsinin hər biri müvafiq bülletenlərlə təmin olunub.

Qeyd edək ki, prezident seçkiləri ilə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər qanunvericilikdə nəzərdə tutulmuş müddətdə Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edildikdən sonra 2024-cü il yanvarın 24-dən etibarən seçki bülletenlərinin çapına başlanılıb və Komissiyanın qərarı ilə 6 milyon 524 min 203 seçki bülleteni çap olunub. Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki bülletenləri dairə seçki komissiyalarına paylandıqdan sonra səsvermə gününə azı 3 gün qalmışadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına veriləcək. Həmçinin yüksək təhlükəsizlik şəraitində hazırlanan seçki bülletenləri dairə seçki komissiyalarına verildikdən sonra onların daşınması, saxlanması və məntəqə seçki komissiyalarına paylanması prosesinin mühafizəsi Daxili İşlər Nazirliyinin aidiyyəti qurumları tərəfindən həyata keçiriləcək.

✍ **Səbuhi HƏSƏNOV**

# Bir əsrlik muxtariyyətin 87 yaşlı şahidi
# Üzeyir bəyin yadigarı

Bir əsrlik möhtəşəm tarixi inkişaf salnaməsi yazan Naxçıvan Muxtar Respublikası. Hər sətri qəhrəmanlıq, şücaət, mübarizliklə dolu bu salnaməni vərəqlədikcə təhsil, mədəniyyət, iqtisadiyyat, turizm, bir sözlə, bütün sahələr üzrə töhfələr, bəhrələr çıxır qarşımıza. Musiqi mədəniyyəti xəzinəmizə dəyərli incilər bəxş edən Naxçıvanın ilk musiqi məktəbi də qürur, fəxr xitabətimiz kimi yer alıbdır bu sırada. 1937 və 1946-cı il-



lərdə Naxçıvandan SSRİ Ali Sovetinə deputat seçilən dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəylinin təşəbbüsü ilə yaradılan Naxçıvan şəhər 1 nömrəli uşaq musiqi məktəbindən gedir söhbət...

Ötən günlərdə tanınmış bəstəkar Məmməd Məmmədovun adını daşıyan həmin musiqi məktəbi ilə tanışlıq zamanı öyrənirik ki, Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin sədri Cəfərovun 1937-ci il 23 avqust tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikasında musiqi məktəblərinin açılmasına başlanılıb. Bu prosesdə Üzeyir Hacıbəyli müstəsna xidmətlər göstərib. Belə ki, Bakıdan sonra məhz Naxçıvanda musiqi məktəblərinin açılması Üzeyir Hacıbəyli tərəfindən bir neçə səbəbə görə bəyənilib və tövsiyə edilib. İlk növbədə, muxtar respublikanın paytaxtı kimi Naxçıvan şəhəri bu işdə müstəsna hüquqi səlahiyyətlərə malik idi. Bundan əlavə, yerli əhalinin elmə, mədəniyyətə marağı və ərazi etibarilə şəhərə bitişik kəndlərdə əhalinin sayı və tərkibi, ümumtəhsil məktəbləri, klub, mədəniyyət evləri və digər mədəniyyət müəssisələrinin ümumi sayı məktəbin uğurla fəaliyyət göstərəcəyinin əsası, təminatçısı kimi şərtləndirilib. Bununla yanaşı, digər vacib nüanslar kimi, Naxçıvanın mütəfəkkirlər diyarı olması, Zülfüqar Hacıbəyovun vaxtilə burada yaşayıb-yaratması və musiqi mühiti ilə Üzeyir Hacıbəylini tanış etməsi, poeziyamızın həmişəbahar gülü Hüseyn Cavidlə Üzeyir bəyin qardaşlıqdan seçilməyən yaxınlığı, Cəlil Məmmədquluzadə ilə yaradıcılıq əlaqələrinin olmasını və digər məqamları göstərmək olar. Deyilənlərə əlavə olaraq Üzeyir Hacıbəylinin 1937-ci ildə Naxçıvandan SSRİ Ali Sovetinə deputat seçilməsi bu işin həllində mühüm amil rolunu oynadı. Onu da xüsusi vurğulamaq yerinə düşər ki, 1937-ci ildə Naxçıvandan SSRİ Ali Sovetinə deputatlığa namizədliyi irəli sürülən görkəmli bəstəkar seçicilərlə görüşmək üçün Naxçıvana gəlir və həmin uşaq musiqi məktəbinə “Berlin” markalı fortepiano hədiyyə edir. 2018-ci ildə yenidən təmir olunan musiqi aləti hazırda kollektiv tərəfindən dəyərli miras kimi qorunub saxlanılır...

2017-2021-ci illərdə məktəbin direktoru işləmiş, 28 illik pedaqoji fəaliyyətə malik Ramin Hacıyev deyir ki, əvvəllər musiqi məktəbində çalışmış bir sıra mədəniyyət xadimləri ilə söhbətlərimiz çox olub, bu mədəniyyət ocağının tarixi inkişaf yolu barədə maraqlı faktlar əldə etmişik. Bu baxımdan qeyd edə bilərik ki, Naxçıvanda ilk musiqi məktəbi yarandığı gündən ixtisaslı kadrların çatışmaması rəhbərlərin tez-tez dəyişməsinə səbəb olub. İlk vaxtlar məktəbə qeyri-ixtisaslı kadrlar, əsasən, İncəsənət İşləri İdarəsinin təlimatçıları rəhbərlik ediblər. Hüseyn Baqidən sonra məktəbə hərbi komissar kimi tanınan Əsgər Əhmədov direktor təyin olunub. 1939-cu ildə məktəbə İncəsənət İşləri İdarəsinin rəisi İsmayıl Sailov, həmin ildən 1941-ci ilədək Məmməd Ələkbərov, 1943-1944-cü illərdə Siddiqə Abbasova, 1945-1946-cı illərdə isə Məmməd Cavadov rəhbərlik ediblər. Bundan əlavə, Məmməd Cavadov 1942, 1945-1950-ci illərdə tədris hissə müdiri vəzifəsini uğurla yerinə yetirib. Musiqi məktəbinə qısa müddət rəhbərlik edən Hüseyn Baqini 1939-cu ildə əvəz edən ixtisasca kamança müəllimi olan Məmməd Ələkbərov müəllim kontingentinin ixtisaslı kadrlarla təmin olunmasına ciddi diqqət göstərib. Bu işdə Üzeyir Hacıbəyli Məmməd müəllimə köməklik edərək öz tələbələrindən bir neçəsinin işləmək üçün məktəbə göndərilməsinə nail olub və beləliklə, Naxçıvanın ilk musiqi məktəbində müəllim kollektivinin yeni ixtisaslı kadrlarla təmini işində ilkin uğurlu addımlar atılıb. Belə ixtisaslı müəllimlərdən Hüseyn Sadıxov (tar), Rəhim Babayev (kamança) və Olqa Nikolskayanı (fortepiano) göstərmək olar. Məmməd Ələkbərov kiçik müəllim kollektivi ilə böyük uğurlara imza atıb. Musiqi məktəbinin ilk müdavimlərindən bir çoxu musiqi təhsilini davam etdirərək bu sənətin görkəmli ustadları kimi Naxçıvan musiqi mədəniyyəti tarixində silinməz iz qoyublar. Həmin sənətkarlardan Nəriman Məmmədov







(tar), Kamil Abdullayev (tar), Ənvər Kəngərli (kamança) və başqalarının adını nümunə çəkə bilərik. Digərlərinin isə müxtəlif sənət sahibləri olmasına baxmayaraq, bir ziyalı kimi formalaşmasında aldıqları musiqi təhsilinin əsaslı təsiri olduğunu deyə bilərik: Yavuz Axundov (tar), Mehdi Sultanov (skripka), İradə Mirişli (skripka), Fikrət Qasımov (tar), Cəmil Təhməzbəyov (tar), Nadir Təhməzbəyov (skripka) və Rəhim Rəhimov (fortepiano)...

Ramin müəllim deyir ki, Naxçıvanda ilk musiqi məktəbinin yaradılmasından bir neçə il sonra 1943-cü ildə Azərbaycan Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsi rəisinin əmri ilə məktəbə göndərilən müəllimlərdən Məmməd Cavadovun pedaqoji fəaliyyəti təqdirəlayiqdir. Məmməd müəllim direktor, dərs hissə müdiri vəzifələri ilə yanaşı, musiqi məktəbində nəfəs alətləri şöbəsinin, orkestr və xor kollektivlərinin yaradılması, onlara başçılıq etməsi, caz orkestrinə kadrlar hazırlanmasında xeyli səmərəli, yaddaqalan, uzun illər müxtəlif nəslin nümayəndələrinin bəhrəsini gördüyü işləri aparıb. Məmməd Cavadov musiqi məktəbi ilə yanaşı, Naxçıvan teatrında da səmərəli fəaliyyət göstərib. Gənc bəstəkar teatrda Üzeyir Hacıbəylinin “Leyli və Məcnun”, “Əsli və Kərəm” operalarına, “Arşın mal alan” musiqili komediyasına uğurla dirijorluq etməklə bərabər musiqi məktəbində nəzəriyyə sinfində, klarnet ixtisası üzrə dərs keçərək gənc musiqiçilərin sənətə dərindən yiyələnməsi üçün əlindən gələni əsirgəmirdi. Məmməd müəllimin yaradıcılığının dəyərli məhsulu kimi illər boyu dillər əzbərinə çevrilən “Barı Naxçıvan” mahnısının yaranmasını da xüsusi vurğulamaq olar. Bəstəkar Naxçıvanda musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 1944-cü ildə Naxçıvan MSSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilib...



Üzeyir Hacıbəylinin 1937-ci ildə musiqi məktəbinə hədiyyə etdiyi “Berlin” markalı fortepiano

Müsahibimiz vurğulayır ki, məktəbin müəllimi olmuş Rəşid Məmmədov Naxçıvan musiqi təhsilində apardığı quruculuq fəaliyyəti ilə də yadda qalıb. O, 1964-cü ildən başlayaraq rayon mərkəzlərində musiqi məktəblərinin açılması məsələsini gündəmə gətirib. İlk növbədə, rayon mərkəzlərində Naxçıvan musiqi məktəbinin filialını yaradıb, sonra isə həmin məktəblərin müstəqil məktəbə çevrilməsinə nail olub. Beləliklə, 1965-ci ildə Ordubad rayon musiqi məktəbi, 1967-ci ildə Culfa rayon musiqi məktəbi, 1968-ci ildə Bəhruz Kəngərli adına Şərur Rayon Uşaq İncəsənət Məktəbi, 1969-cu ildə Şahbuz rayon uşaq musiqi məktəbi yaradılıb. Rəşid Məmmədovun əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. O, 1967-ci və 1974-cü ildə Naxçıvan Ali Sovetinin Fəxri fərmanına, 1973-cü ildə Naxçıvan MSSR-in Əməkdar mədəniyyət işçisi adına, 1999-cu ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına, 2006-cı ildə isə Prezident mükafatına layiq görülüb.

1969-cu ildən ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında mədəniyyətin inkişafı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən başlayaraq Naxçıvan Muxtar Respublikasının mədəniyyət müəssisələrinin şəbəkəsi genişləndirilib, mədəniyyət sahəsində yüksək səviyyəli kadrların hazırlanması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilib. Həmin illərdən başlayaraq şəhər, qəsəbə və kəndlərdə bir-birinin ardınca sistemli şəkildə mədəniyyət müəssisələri açılıb və xalqın istifadəsinə verilib. 1970-ci illərdə 1 nömrəli musiqi məktəbinə Tapdıq Bağırov başçılıq edib. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dönəmə təsadüf edən həmin dövrdə hər yerdə olduğu kimi, 1 nömrəli uşaq musiqi məktəbində də yaradıcılıq işləri geniş vüsət alıb. Dövrün tələblərinə uyğun olaraq Avropa musiqi alətlərinin tədrisində və şöbələrdə şagird kontingentinin artırılmasında əsaslı dönüş yaradılıb. Bu da qısa müddət ərzində musiqi məktəbləri önündə bu ixtisaslar (fortepiano, skripka) üzrə yeni müəllim kadrları ilə təminat baxımından geniş üfüqlər açıb...

Qırx ildən artıqdır, bu məktəbdə çalışan müəllimlərdən Mahirə Zülfiqarova, Nailə Məmmədova və Zəhra Axundova deyirlər ki, görkəmli bəstəkar və musiqiçilərdən Nəriman Məmmədov, Ramiz Mirişli, Yaşar Səfərov, Kamal Əhmədov, Nazim Kazımov, Adıgözəl Əliyev, Əkrəm Məmmədli, Xalq artisti İlqar Muradov və başqaları 1 nömrəli uşaq musiqi məktəbində təhsil alıblar. Şagirdin uğur qazanmasında, şübhəsiz, müəllim zəhmətinin rolu mühümdür. Bu baxımdan o dövrdə musiqi məktəbində dərs deyən Səfər Rəcəbli, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Vahid Axundov, Yusif Əliyev, Azər Abbasov, Məmməd Məmmədov və başqa peşəkar pedaqoqların əməyi danılmazdır. Təsadüfi deyil ki, məhz həmin illərdə məktəbin şagirdləri ölkə səviyyəli konsert proqramlarında, bayram tədbirlərində uğurlu çıxışlar ediblər. Sonrakı illərdə isə ayrı-ayrı ixtisaslar üzrə pedaqoji fəaliyyətlə də məşğul olub, gənc kadrların yetişdirilməsinə, bütövlükdə, Azərbaycan musiqisinin inkişafına öz töhfələrini veriblər. Məktəbin adını daşıdığı Məmməd Məmmədov həm məzunu olduğu, həm də çalışdığı 1 nömrəli uşaq musiqi məktəbində truba və akkordeon siniflərinin açılmasının təşəbbüskarı olub...

Musiqi məktəbinin direktor əvəzi, 27 illik pedaqoji təcrübəyə malik Nurlana Rəsulova mədəniyyət ocağının bugünkü dövrü barədə məlumat verərək qeyd edir ki, hazırda burada fortepiano, xalq çalğı alətləri, simli, nəfəsli alətlər və nəzəri fənlər olmaqla, 4 şöbə fəaliyyət göstərir. Altısı xalq çalğı alətləri, dördü simli, nəfəsli alətlər və biri fortepiano olmaqla, 11 ixtisas üzrə tədris aparılır. Məktəbə üz tutan 9-12 yaşlı uşaqlar tar, kamança, qanun, qarmon, nağara, skripka, vokal, fleyta və digər musiqi alətlərinin, ixtisasların sirlərinə yiyələnir, nəzəriyyə dərslərində dünyanın tanınmış bəstəkarları, musiqişünasları barədə zəngin biliklər qazanırlar. Bu gün mədəniyyət ocağında 241 şagirdin musiqi təhsilinin artırılması üçün geniş təcrübəyə malik 60 müəllim çalışır. Naxçıvan şəhər 1 nömrəli uşaq musiqi məktəbində pedaqoji fəaliyyətlə məşğul olan müəllimlərin bir neçəsi məhz vaxtilə bu mədəniyyət müəssisəsindən məzun olub və indi yeni musiqiçi nəsillərin yetişməsi üçün çiyin-çiyinə səylə çalışırlar. Mədəniyyət ocağında il ərzində əlamətdar günlərlə bağlı tədbirlər keçirilir, məktəbin şagirdləri müxtəlif konsertlərdə, musiqi festivallarında uğurlu çıxışlar edir, diplom və Fəxri fərmanlarla təltif olunurlar...

Apardığımız müşahidələr, etdiyimiz söhbətlər belə deməyə əsas verir ki, Üzeyir bəyin yadigarı, muxtariyyətin qiymətli mədəniyyət töhfəsi olan 1 nömrəli uşaq musiqi məktəbi bu gün də öz nümunəvi fəaliyyəti ilə sayılıb-seçilir. Şuşanın musiqi sənətinin rəmzi, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin mədəniyyət ocağına hədiyyə etdiyi fortepianonu ən əziz yadigar, dəyərli xatirə olaraq göz bəbəyi kimi qoruyan kollektiv həm də tarixi irsimizin mühafizəsi, klassik, xalq, Avropa musiqisinin uşaq və yeniyetmələrə aşılanması yolunda var qüvvəsi ilə çalışır. 87 yaşlı qocaman musiqi ocağının ziyasında yeni-yeni bəstəkarların, musiqişünasların yetişməsi, incəsənət məbədinin adının hər zaman belə fəxrlə, qürurla çəkilməsi diləyi ilə...

Nail ƏSGƏROV





**Uzunömürlülüyün sirri mehribanlıqdır. Nə qədər ki, ailədə kişi ilə qadın arasında hörmət var, hər kəs öz yerini bilir, o ailənin təməli möhkəm olur. Ailədə tərbiyə əsas rol oynayır. Ata-ana mehribandırsa, uşaqlar da mehriban yaşayacaq.**

***

**Ailə bir dövlətdir. Necə ki, dövlətdə hərc-mərclik baş verərsə, dağılıb məhv olar. Ailə də onun kimi. Ailədə söz bir olmalıdır. Əsas məsələ qadınla kişinin bir-birini başa düşüb güzəştə getməsidir. Bu münasibət uşaqlara da sirayət edir və uzunömürlü, nümunəvi bir ailə formalaşır. Ailə böyük bir dəyərdir. Ailəyə məhəbbət xüsusilə lazımdır. Gərək gənclərimiz ailəsinin qədrini bilsin.**

# ONLARIN HEKAYƏSİ

## Naxçıvanın ən uzunömürlü ailəsi

Təməli nə az, nə çox düz 75 il bundan öncəyə dayanan bir ailədən bəhs edəcəyəm bu yazıda. Ordubad rayonunun Bist kəndində yaşayan bu ailəni, əslində, çoxdan tanıyıram. Demək olar ki, özümü və dünyanı dərk etdiyim gündən... Həmin ailənin varlığı mənə həyatı bəxş edib desəm, yanılmaram. Elə buna görə də 30 ildən artıq bir dövrünə şahidlik etdiyim iki insanın birgə keçən ömür hekayəsini yazmaq mənim üçün ikiqat məsuliyyətdir. Həm jurnalist, həm də bu ailənin üzvü olaraq...

Mahmud Tahirov 1927-ci ildə Nürgüt kəndində dünyaya göz açıb. Qonşu Xurs kəndində anadan olan Tutu nənənin isə bu il 94 yaşı tamam oldu. Onların taleyi 75 il bundan öncə, 1949-cu ilin Novruz günündə – martın ayının 21-də birləşib. Əslində, bu iki dünyagörmüş insanı canlı tarix kimi qəbul edirəm. O dövrün ağrılı-acılı, müharibələrlə dolu illərini onların dilindən, xatirələrindən çox eşidib, təsəvvürümdə çox canlandırmışam. Gəlin onlarla sizi də tanış edim. Başlayaq 97 yaşlı Mahmud Tahirovdan...

Ailənin 7 övladının ən böyüyü olan Mahmud kişinin ömrünün gənclik illəri məşəqqətlə keçib. Atası Əli Tahirov dövrünün tanınmış ziyalılarından olub, xalqının maariflənməsinə can yandırıb. Öz evində 4 illik məktəb açıb, ətraf kəndlərin uşaqlarının təhsil almasına səy göstərib. Mahmud kişinin özü də elə bu məktəbin yetirməsi olub və sonralar qonşu Xurs kəndindəki 7 illik məktəbdə təhsilini davam etdirib. Elə Tutu nənə ilə tanışlıq da həmin illərə təsadüf edib. Bu gənclik məhəbbəti nümunəvi 75 ilə aparan ilk addım olub.

Onların ilk sevgi etirafları vaxtilə həmin məktəbdə öyrəndikləri hərflərlə həkk etdikləri kağız parçalarında yaşayır. İndi də o məktubları ən əziz, ən şirin xatirə kimi qoruyub saxlayırlar. Lakin bu ülvi məhəbbəti uzun illər qəlblərində bir sirr kimi yaşatmalı olublar. Sovet hakimiyyətinin totalitar rejimi və İkinci Dünya müharibəsinin cənginə alduğı o dövrlər... Mahmud kişinin məktəb açıb xalqın maariflənməsinə çalışan atası bu xeyirxah əməlinə görə repressiya qurbanı olub. Qardaşları isə uzun illər müharibədə iştirak etdiklərindən ailənin əsas yükünü daşımalı olub. Uzun illər boyu hər gün qardaşlarının müharibədən dönməsi xəbərini həsrətlə gözləyən Mahmud Tahirovun təhsil almaq arzusu da sevgisi kimi yarım qalıb.

Bəli, uzun illər müharibənin gətirdiyi ağır, itkilərlə dolu günlərini yaşayan Mahmud baba yaşlı, xəstə anasını və bacısını dolandırıb, evinin, ailəsinin tək dayağı olub. Bütün bunlara görə ürəyində bəslədiyi saf məhəbbəti və oxumaq həvəsini boğmaqla yaşayıb. Lakin qəlbindəki bu arzular heç vaxt sönməyib...

Nə yaxşı ki, atasının aqibətini qardaşları da yaşamayıb müharibədən sağ-salamat qayıdıblar. Müharibə bitdikdən sonra Mahmud Tahirov təhsil almaq arzusundan dördəlli yapışıb. Ailəsini qardaşlarının himayəsinə verərək Ordubaddakı pedaqoji məktəbə yollanıb, daha sonra Naxçıvanda yeni açılan ikiillik Müəllimlər İnstitutunda ali təhsil alıb.

Mahmud babanın ömür-gün yoldaşı Tutu nənənin gəncliyi də ən az onunku qədər çətin keçib. Bəlkə də, daha artıq... Müharibənin ağır və ağrılı həyatını daha çox kişilər çiynində daşısa da, gözü yollarda qalan qadın iztirabı, qadın göz yaşı qədər insan ürəyini heç nə dağlaya bilməz. Onun da təhsil almağa çox böyük həvəsi olub. Xurs kəndində doğulub böyüyən Tutu nənənin bu həvəsi onu bir qədər uzaqlara aparıb. Bir müddət qonşu kənddəki ev şəraitində açılan yeni məktəbdə ibtidai təhsil alıb. Lakin məlum repressiya onun da bu arzusunu ürəyində qoyub. Gənc yaşında atası müharibənin gedər-gəlməzinə yollanıb. Ardınca isə qardaşları İkinci Dünya müharibəsi iştirakçısına çevrilib. İndi də Tutu nənədən o illəri soruşanda üzündəki dərin hüznü, nisgili, həsrət dolu iztirabı hiss edirsən. Bəzən çox dərinlərə qərq olmuş o gözlərdə qeyri-adi bir parıltı sezirəm. Sanki keçmişi canlandırmaq üçün dərinlərə dalır, o illəri, gəncliyini, qurduğu səyyalları xatırlayır. Nəvələrinin xoş güzəranını seyr edib fərəhlənsə də, kaş ki o gəncliyi indi yenidən yaşamaq imkanım olaydı deyir, bəlkə də... Dodaqları əsə-əsə dediyi, sadəcə, bir cümləni xatırlayıram: "Biz o günlərimizin hər birini sonuncu gün kimi yaşayırdıq".

Sevgi hər zaman təsəlli, həyat eşqini daha da alovlandıran bir qüvvədir, deyirlər. O sevgi ki kəndləri, şəhərləri dağıdan ağır müharibə illəri belə ona qalib gələ bilməz. Uzun müddət, sadəcə, ürəklərdə yaşayan bu sevgi, nəhayət ki, iki gənci qovuşdurub. Ailə qurduqları ilk illərdə 11 nəfərlə birotaqlı, balaca, köhnə bir evdə qalsalar da, mehriban və xoşbəxt yaşayıblar. Ailəni dolandırmaq üçün bir neçə yerdə işləməli olub Mahmud Tahirov. Qazandığı məvacibla ailəsini saxlamağa çalışan gənc müəllim müxtəlif illərdə təyinatla Nəhəcir, Göynük, Xoşkeşin kimi kəndlərdə pedaqoji fəaliyyət göstərib. Ömrünün 60 ilə yaxınını gənc nəslin bilikli, savadlı böyüməsinə həsr edib. Müəllimlik fəaliyyətinin son və uzunmüddətli ünvanı isə doğma kəndi Bistdə keçib. O dövrdən başlayaraq rahat, firavan həyatın ilğımları gənc ailənin başının üzərində sayrışıb. Uzun illərdən bəri çəkilən əziyyətin, zəhmətin bəhrəsini görməyə başlayıblar. Yeni tikilən ev, qurulan təsərrüfat Mahmud kişinin də, Tutu xanımın da ürəyini fərəhlə doldurub. Kənd şəraitinin bütün imkanlarından istifadə edən zəhmətkeş ailə xüsusilə arıçılığa böyük maraq göstərib. Övladları onların arıçılıq ənənələrini hər gün də davam etdirir. Bu gündək "ömür sürən" arı ailələrinin sayı genişlənərək hazırda 120-yə çatıb.

O, peşəkar müəllim kimi tanınmaqla bərabər həm qayğıkeş ata, mehriban həyat yoldaşı, həm də sevimli babadır. 70 illik ailə həyatından söz açan Mahmud baba deyir: "Uzunömürlülüyün sirri mehribanlıqdır. Nə qədər ki, ailədə kişi ilə qadın arasında hörmət var, hər kəs öz yerini bilir, o ailənin təməli möhkəm olur. Ailədə tərbiyə əsas rol oynayır. Ata-ana mehribandırsa, uşaqlar da mehriban yaşayacaq".

Sevgi macərasından bəhs edən hansısa bir kitab oxuyanda təsəvvürümdə ilk olaraq onların hekayəsi canlanır. İllər uzunu nəyin bahasına olursa-olsun, çətinlikləri birgə aşaraq sevgiylə yaşayanları, sən demə, sevgi yaşadırmış. Yoxsulluq, müharibə, qıtlıq... Hər şeyə rəğmən ailə səadətini qoruyub saxlayıblar Mahmud babayla Tutu nənə. Halbuki günümüzdə rahat və firavan yaşayış üçün hər şey var. Bəs çatışmayan nədir?

Ailədə qadına, anaya hörmətin əsas şərt olduğunu bildirən Mahmud baba son illər boşanmaların sayının artmasına və uzunömürlü ailələrin sayının azalmasına bu cür aydınlıq gətirdi: "Ailə bir dövlətdir. Necə ki, dövlətdə hərcmərclik baş verərsə, dağılıb məhv olar. Ailə də onun kimi. Ailədə söz bir olmalıdır. Əsas məsələ qadınla kişinin bir-birini başa düşüb güzəştə getməsidir. Bu münasibət uşaqlara da sirayət edir və uzunömürlü, nümunəvi bir ailə formalaşır. Ailə böyük bir dəyərdir. Ailəyə məhəbbət xüsusilə lazımdır. Gərək gənclərimiz ailəsinin qədrini bilsin".

"Boş vaxtlarını nəvələri ilə keçirməyi xoşlayır. Ailəsinə çox bağlı insandır. Mənə, uşaqlarına, gəlinlərinə şeirlər ithaf edib. Xatirə dəftəri bir şairin kitabına bənzəyir", – deyən Tutu nənə də söhbətə qoşulur. Onun simasında əsl qadın xoşbəxtliyini sezmək heç də çətin deyil: "75 ildir, ailəmlə, balalarımla mehriban ömür sürürük. Bundan böyük xoşbəxtlik nə ola bilər? Bizim kimi hər kəsə uzun ömür və xoşbəxtlik arzulayıram!"

Onlar xoşbəxtlikləri ilə əsl Azərbaycan ailə modelini layiqli şəkildə nümayiş etdirirlər. 7 övlad böyüdən ailənin 15 nəvəsi və 13 nəticəsi vardır. Mən də çox xoşbəxt və eyni zamanda qürurluyam ki, belə nümunəvi ailənin bir üzvüyəm. Onlarla fəxr edirəm. Ona görə yox ki, onlar uzun ömür yaşayırlar. Ona görə ki, onlar bu uzun ömrə mənə qataraq yaşayıb, əsl ailənin nə olduğunu bizə aşılayıblar. Budur onları bizim üçün nümunə edən!

✍ **Gülcamal TAHİROVA**

*Qeyd edək ki, ölkənin müxtəlif nüfuzlu media qurumları və internet resurslarının "Şərq qapısı"na istinad edərək muxtar respublikanın ən uzunömürlü ailəsi haqqında paylaşdığı məqalə həftə ərzində ölkə səviyyəsində ən çox oxunan material olub.*

# Milli dəyərlərimiz ətrafında birləşən Azərbaycan gəncliyi

Ümummilli Lider Heydər Əliyevin ***"Bizim bugünkü gəncliyimiz sağlamdüşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir"*** sözləri müasir gəncliyin yoluna işıq tutur.

Diaspor Gənclərinin Heydər Əliyevin 100 illiyinə həsr olunmuş IV Yay Düşərgəsində tanış olduğumuz, orta təhsilini Şərur rayon Kürkənd kənd tam orta məktəbində başa vuran ***Milana Seyidzadə*** ilə "Skayp" bağlantısı yaradaraq həmsöhbət olduq. O deyir: – Qafqaz Universitetində (indiki Bakı Mühəndislik Universiteti) bakalavr pilləsinin ikinci kursunda Avropa ölkəsindəki təhsil sistemi ilə tanış olmaq üçün Erasmus Mundus tələbə mübadilə proqramı ilə 6 aylıq Rumıniyaya getməyi qərara aldım. 2018-2020-ci illərdə ilk magistr təhsilimi Latviya Universitetinin İngilis dili üzrə Lingvistika bölməsində almışam. Sonra daha spesifik bir sahə seçərək 2020-2023-cü illərdə ikinci magistr təhsilimi Uşaq təlim-tərbiyəsi, uşaqlara dilin oyun və oyuncaq vasitəsilə öyrədilməsi və Uşaq Hüquqları üzrə 3 fərqli ölkədə, İspaniya, Portuqaliya və Türkiyədə tamamladıqdan sonra ikinci magistr təhsilinə davam edib, Avropa Birliyinin 50 min avro dəyərindəki təqaüd proqramını seçdim. Dövlət və özəl müəssisələrdə ingilis dili müəllimi olaraq fəaliyyət göstərmişəm və hazırda Portuqaliyanın yerli şirkətlərindən birində marketinq mütəxəssisi olaraq çalışıram. Müsahibimin sözlərinə görə, istər Latviya, istərsə də Portuqaliyada vətənini sevən hər bir kəs milli adət-ənənələrə uyğun olaraq bayramlar keçirir, Azərbaycan adət-ənənələrini, rəqsini, milli mətbəxini yaşadığı ölkədə tanıtmağa çalışır. Portuqaliyaya nəzərən Latviyada yaşayan həmyerlilərimiz say cəhətdən üstünlük təşkil etdiyinə görə, eyni zamanda Riqada Azərbaycan səfirliyi olduğuna görə bayramlarımız daha təmtəraqlı qeyd olunur.



Ötən aylarda Diaspora Gənclərinin Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş IV Yay Düşərgəsinin Naxçıvanda keçirildiyini eşidəndə çox sevindim. Düşündüm ki, uzun illər bu doğma şəhərdə yaşadığım üçün və uşaqlıq illərimin əksər xatirələri bu şəhərlə bağlı olduğu üçün bu düşərgədə iştirak etməliyəm.

Bir həftəlik düşərgə zamanı əvvəllər gəzib-gördüyüm doğma yerləri yenidən gördüm, diaspor tərəfindən təşkil olunmuş elmi, mədəni, sosial və siyasi panellərdə iştirak edib yeni biliklər əldə etdim, eyni zamanda dünyanın 50 ölkəsindən düşərgəyə qatılan 120 nəfər gənclə tanış olub yeni dostlar qazandım. Belə tədbirlərin həyata keçirilməsi gəncliyimizin həmrəyliyinin göstəricisidir. Harada olmağımızdan asılı olmayaraq, hər birimiz vətənimiz üçün çalışırıq. Uşaqlığımın keçdiyi bu şəhərin havası, suyu, hər bir qarış torpağı, insanları mənə çox doğmadır. İnsan xaricdə yaşayarkən ölkəsinə daim həsrət hissi duyur. Qısa müddət olsa da, 1 həftə ərzində milli auranı hiss etmək mənə çox yaxşı təsir etdi.

Müsahibim bugünkü gəncliyə səslənərək deyir: – Arzularını gerçəkləşdirmək üçün qarşılarına məqsəd qoyub və o məqsədə çatmaq üçün həvəslə addımlasınlar. İllər öncə Naxçıvanın balaca bir kəndində məktəbə gedərkən ağlıma da gəlməzdi ki, bir gün bu şəhərə Portuqaliyadan öz ölkəmi təmsil edən gənc vətəndaş kimi dəvət olunacağam. Əlbəttə, həyatda çətinliklər daim olur, amma hər çətin yolun sonunda layiq olduğumuz və gələcəyə açılan işıqlı bir qapı olduğunu unutmasınlar. Mənə görə, insanın özünü cəmiyyətə yararlı bir şəxsiyyət kimi formalaşdırması üçün təhsil ən əsas rol oynayan ünsürlərdəndir. İndiki dövrdə də bunun ən yaxşı yolu təhsil vasitəsilə özümüzü inkişaf etdirməkdir. Və təbii ki, buna yardım edən digər bir amil də bacaracağına inanmaqdır. Gənclər çalışmalıdır ki, öz üfüqlərini genişləndirsinlər. Verilən vasitələri uğura çevirmək bizim əlimizdədir. Günümüzdə internetin və texnologiyanın təkamülü ilə artıq istənilən vaxt bir cəhdlə sonsuz informasiya əldə etmək, uzaq məsafələrdəki insanlarla əlaqə saxlamaq imkanımız var. Mən zamanla bütün problemlərin öhdəsindən gəlsəm də, tək çətinliyim ailəmdən və Vətənimdən uzaq olmaqdır.



Sonda gəncimiz əlavə etdi: – Xaricdə yaşadığım müddətdə öyrəndiklərimlə ölkəmə xidmət etmək üçün layihələr hazırlayıram və eyni zamanda elmi araşdırmalar edirəm. Hazırda magistr diplom müdafiəm üçün Azərbaycan və Portuqaliya arasında etdiyim müqayisəli araşdırmanı məqalə halına salıb elektron şəkildə yayımlamaq üçün çalışıram.

*Bu gün dövlət gənclər siyasəti uğurla davam etdirilir. Ölkəmizdə müasir gəncliyin inkişafına göstərilən xüsusi diqqət və qayğının nəticəsidir ki, gənclərimizin səsi ölkə hüdudlarından kənardan da gəlir.*

✍ **Bülbül QULİYEVA**

# Vətəndaş məmnunluğu və sosial ədalət prinsipləri ilə...

## Proaktiv qaydada 3107 nəfərə sosial müavinət və təqaüd, 496 şəxsə əmək pensiyası təyin olunub

***“Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik”*** ideyasının ana xətti insanları firavan həyata qovuşdurmaqdır. Son 5 ildə əməkhaqqı və digər sosial ödənişlərin artırılması məqsədilə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketinin icrası nəticəsində bu ideya əməli fəaliyyətdə özünün ən yüksək səviyyəsinə qədəm qoyub. Dövlət başçısının aztəminatlı ailələrin məşğulluğunun artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi sahəsində reallaşdırdığı tədbirlər Naxçıvan Muxtar Respublikasında da öz bəhrələrini verir. 2023-cü ildə də insanların sosial ədalət prinsipinə uyğun layiqli həyat şəraitinə malik olması, işlə təminatı, o cümlədən əmək münasibətləri, əməyin mühafizəsi, övladlığagötürmə, əlilliyi olan şəxslərin reabilitasiyası, şəhid və qazi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətlərində tədbirlər uğurla reallaşdırılıb...

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına əsasən 2023-cü il üzrə işaxtaran və işsiz vətəndaşların əmək fəaliyyətinə cəlb olunması, gənclərin və qadınların məşğulluğunun təmin olunması məqsədilə müvafiq işlər davam etdirilib. Müraciət etmiş vətəndaşların Əmək və Məşğulluq altsistemində (ƏMAS) qeydiyyat məlumatları və işlə təmin olunma göstəricilərinin nəticəsinə uyğun olaraq iş axtaranların artması, iş təminatı və iş sahəsində güvənin və marağın çoxaldığını təsdiq edir. 2022-ci illə müqayisədə ötən il haqqıödənilən ictimai işlər, birgə maliyyələşmə və digər bu kimi tədbirlər vasitəsilə iş təminatında artımlar qeydə alınıb. Bu da haqqıödənilən ictimai işlərin daha geniş bir əmək bazarına təsir etdiyini və iş təminatında ən böyük təbliğatın bu sahədə müşahidə olunduğunu göstərir. Muxtar respublikada ötən ilin avqust ayından başlayaraq əməkhaqqının bir hissəsinin işsizlikdən sığorta fondunun vəsaiti hesabına maliyyələşdirilməsi proqramı çərçivəsində Naxçıvan Muxtar Respublikası Dövlət Məşğulluq Agentliyi tərəfindən 9 müəssisə ilə mövcud vakant yerlər üzrə müqavilə bağlanılıb, bir sıra işaxtaran və işsiz şəxslər işlə təmin olunub. Həmin şəxslərin 1000-dən çoxu haqqıödənilən ictimai işlərə cəlb edilib.

Son illərdə geniş yayılan və effektivliyi ilə diqqəti çəkən sosial layihələrdən biri də özünüməşğulluq proqramıdır. 2023-cü ildə bu sahədə maarifləndirici işlərin nəticəsi olaraq proqrama 1000 işsiz şəxs cəlb edilib. Monitorinq nəticəsində uyğunluğu müəyyən edilmiş 1000 nəfərdən, təxminən, 70 faizinin müvafiq təlimlər vasitəsilə bacarıqları inkişaf etdirilib və aktivlərlə təminata başlanılıb.

Əmək münasibətləri və əməyin mühafizəsi sosial ədalət prinsipinə uyğun olaraq daim diqqətdə saxlanılan məsələlərdəndir. Muxtar respublikada əmək münasibətləri və əməyin mühafizəsi istiqamətində tədbirlərin icrasına uyğun 2023-cü ilin yanvar-dekabr aylarında bir sıra işlər həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Dövlət Əmək Müfəttişliyi Xidmətinə vətəndaşlar tərəfindən daxil olmuş müraciətlər və aparılan elektron audit nəticəsində nöqsanlar aşkarlanıb və müvafiq bildirişlər göndərilib, əmək qanunvericiliyinə dair maarifləndirmə tədbirləri diqqətdə saxlanılıb. Xidmət tərəfindən Əmək və Məşğulluq altsisteminin (ƏMAS) tətbiqi ilə bağlı muxtar respublikanın şəhər və rayonlarında maarifləndirici seminar və onlayn təlimlər keçirilib, həmçinin işəgötürənlərə metodiki köməkliklər göstərilib.







Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən 2023-cü ildə əmək pensiyalarının vaxtında ödənilməsi üçün müvafiq işlər həyata keçirilib. İl ərzində 499 nəfərə proaktiv qaydada əmək pensiyası təyin olunub. Əlavə olaraq 2466 pensiyaçının əmək pensiyasında yenidən hesablama aparılıb. 2023-cü ildə 3107 nəfərə proaktiv qaydada sosial müavinət və təqaüd təyin edilib.

Aztəminatlı ailələrin maddi rifahının yaxşılaşdırılması istiqamətində görülən tədbirlər çərçivəsində 2023-cü ildə ünvanlı dövlət sosial yardımın tətbiq dairəsi xeyli genişləndirilib. Belə ki, il ərzində orta hesabla 1059 ailəyə 5,1 milyon manat məbləğində ödəniş edilib. Müqayisə üçün bildirək ki, ilin əvvəlində 318 ailə 36 min manat (ailəbaşına 113 AZN) sosial yardım alırdısa, ilin sonunda ailələrin sayı 1265-ə, məbləğ isə 582 min manata (ailə başına 460 AZN) çatıb. Ünvanlı dövlət sosial yardımın 2024-cü il üzrə əhatəliliyi, əlçatanlığı artırılacaq, bu sahədə elektronlaşmanı təmin edən VEMTAS-ın tətbiqi genişləndiriləcək.

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvanda da şəhid ailələrinin, müharibə ilə əlaqədar əlilliyi müəyyən olunan şəxslərin sosial vəziyyətinin yaxşılaşdırılması, o cümlədən mənzil və nəqliyyat vasitələri ilə təminatı diqqətdə saxlanılır. Ötən il şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə 26 mənzil, 19 nəqliyyat vasitəsi təqdim edilib. Hesabat dövrünün sonuna 49-u kişi, 246-sı qadın olmaqla, 295 nəfər şəxs evdə sosial-məişət xidməti ilə təmin olunub. Həmçinin Ahıllar Evində yaşayan 6 sakinə xidmət göstərilib. Ötən il Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu (“Dəstək” Fondu) tərəfindən 195 şəhid ailəsi və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxsə 478 min manat məbləğində vəsait xərclənib. “Dəstək” Fondunun fəaliyyəti ilə bağlı 2023-cü il 12 iyul tarixdə keçirilmiş iclasda fonda yığımların həyata keçirilməsi üçün ianə kampaniyalarının təşkil edilməsi barədə qəbul edilmiş, qərara uyğun olaraq “44 günlük Zəfər tarixinə ehtiramla – “Dəstək” Fonduna yardım kampaniyası” adlı aksiyanın icrası başa çatdırılıb.

Bütün bu sadalanan layihə və proqramların icrası ilə yanaşı, il ərzində muxtar respublikanın rayon, qəsəbə və kəndlərində keçirilən vətəndaş qəbulları, davamlı olaraq şəhid ailə üzvlərinin, tənha ahılların evlərində ziyarətlər, onların qayğı və çətinlikləri ilə bağlı yerindəcə qərarların qəbulu dövlət-vətəndaş münasibətlərinin düzgün qurulmasına, effektivliyinin artırılmasına töhfə verməklə cəmiyyət üzvləri tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilir.

*Ümumilikdə, ötən ilin mənzərəsi belə deməyə əsas verir ki, ölkəmizdə yüksələn xətlə inkişaf edən, hər il yeni layihələrlə, proqramlarla daha da təkmilləşdirilərək səmərəliyi artırılan sosial siyasətin muxtar respublikamızda da uğurlu tətbiqinə nail olunub. Vətəndaş məmnunluğu, sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin əldə rəhbər tutulması sözügedən tədbirlərin icrasının 2024-cü ildə də kifayət qədər bəhrələr verəcəyini göstərir.*

**✍ Nail ƏSGƏROV**



# İçimizdəki Allah...



**✍ Gülcamal TAHİROVA**

Hər dəfə vicdanım qəlbimdə hökm oxuyanda Mirzə Cəlilin bu sözləri yadıma düşür: “Qəlbimdən gələn səs mənə çox zadlar öyrədir. Həmin səs pak və təmiz vicdanımın səsidir...” Bəli, vicdan bütün hisslərin ən ümdəsi, qəlbimizdəki mizan tərəzisidir. O, Allahın ilham mənbəyi, bəlkə də, elə Allahın özüdür?..

İnsan kamilləşdikcə, dünyanın çirkablarından arındıqca içindəki Allahı kəşf edir. O Allah ki insanda özünü vicdan kimi inikas edir. Elə bu səbəbdəndir, müqəddəs Quranda belə deyilir: “Allah bizə şah damarımızdan daha yaxındır”. Bu fikri Viktor Hüqo bu sözlərilə şərh edib: “Vicdan, insanın içindəki Tanrıdır”. Sizcə də elə deyilmi?.. Mənə görə, “vicdan” məfhumu, əslində, daha çox “ədalət” anlayışı ilə bağlıdır. Ədalət isə biz insanlar üçün olduqca nisbi bir qavrayışdır...

Təmiz vicdan paklıqdır deyirlər... Bəs biz necə? Paklıq mərtəbəsinə çata bilirikmi?! Bütün bioloji varlıqlar yaşamaq uğrunda mübarizə aparır. Lakin bu gün yaşadığımız rahat həyat şəraiti mübarizəsiz yaşamaq rahatlığı gətirib sanki həyatımıza. Bu rahatlıq insanların həyatına hakim kəsilmək şövqü yaradıb çoxumuzda... Axı bikar qalmışıq... Təəssüf ki, bu bəsit həqiqətdir. Gərəksiz münaqişələri, mübahisələri, müdaxilələri, sözləri, söhbətləri necə də çox sevirik... Daim insanların təbiətində pislik, həyatında əyrilik axtarırıq. Təkcə özümüzü görmürük... Özümüz haqqında səmimi və təmənnasız düşünə bilmirik, nədənsə. Özümüzə kənardan baxmaq və kənardan baxanın obrazını yaratmaq bizi təhrif edir, bəlkə də. Öz haqqımızdakı bütün həqiqətləri içimizdə elə basdırırıq, elə pərdələyirik ki, sonralar onu nəinki başqaları, heç biz də tapmırıq, görmürük, unuduruq və başlayırıq öz prizmamızda mükəmməlliyyətçi bir obraz yaratmağa... Amma axı o biz deyilik... Beləliklə, müasir dünyanın dünyəviləşmək kimi xərçəngdən daha qorxulu xəstəliyinə tutuluruq. Xəstə ağıla, xiffətli qəlbə, əsli pozulmuş fitrətə çevrilirik... Zamanla içimizdəki vicdanımızın səsini susdurur, “Allahsızlaşırıq”. Elə bütün dəhşətli hadisələr vicdan dediyimiz nəsnənin susmağı ilə başlayır. Əslində, vicdan susmur. O hər zaman bizi ən doğru yola səsləyir. Sadəcə, aqil insanlar vicdanının, cahil olanlar isə içindəki şeytanın səsinə qulaq verir. Tarixboyu ən böyük qətliamlar, soyqırımlar, qırğınlar vicdanı susmuş insanlar tərəfindən törədilib. Tarix belələrinin törətdiyi minlərlə müharibələrə şahidlik edib. Amma zaman onu da göstərib ki, vicdansızlıq, haqsızlıq, saxtakarlıq və ədalətsizlik üzərində qurulan bütün nəhəng imperiyalar, dövlətlər tezliklə süquta qərq olub. Elə öz xəbis fitrətilə özünü məhv edən insanlar kimi...

...Deyirlər, vicdanın yaddaşındakı günah unudulmur. Onun da yaddaşı var axı... Əlbəttə, vicdanlarını çeşidli arınma üsulları ilə günahlardan təmizləyənlər də az deyil bu dünyada. Amma, təəssüf ki, bu vasitələr ləkəsiz vicdan yarada bilmir. Hər kəsə həyatda pak, təmiz və azad vicdan işığında yaşamaq və yaratmaq arzusu ilə...

# Qəzetimizin əməkdaşları mükafatlandırılıb

Dünən Gənclər Günü münasibətilə Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun keçirdiyi tədbirdə qəzetimizin iki əməkdaşı, sayt üzrə dizayner Lətif Zeynalov və kompüter operatoru Sevda Mirzəyeva təltif olunublar. Əməkdaşlarımıza uğurlar arzulayırıq.




# Arpaçayın sağ və sol sahil magistral kanalları yenidən qurulacaq



Naxçıvanda əkinlərin suvarma suyu ilə təminatı istiqamətində tədbirlərin icrası xüsusilə diqqətdə saxlanılır. Bu işlərin davamı kimi Arpaçayın sağ sahil və sol sahil magistral kanallarının yenidən qurulması planlaşdırılır.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən aldığımız məlumatda bildirilir ki, həmin magistral kanalların qurulmasının texniki-iqtisadi əsaslandırma sənədinin hazırlanması üçün ötən il noyabrın 4-də “Dövlət satınalmalarının vahid internet portalı”nda satınalma müsabiqəsi elan edilib. Dekabrın 14-də müsabiqə uğurla yekunlaşıb. Müsabiqədə iştirak edən şirkətlər arasında aparılmış qiymətləndirmə nəticəsində qalib elan edilmiş “Hydro-Geo Environnement Group” MMC ilə satınalma müqaviləsi imzalanması üzrə müvafiq işlər aparılır. Həmin magistral kanalların yenidən qurulmasının texniki-iqtisadi əsaslandırma sənədinin hazırlanması üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ayrılmış 350.000,0 manat vəsaitin 164.000,0 manatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən sifariş edilib. Vəsait üzrə 186.000,0 manat məbləğində qənaət əldə olunub.



# Xalq təqvimi

# Ömrü az, qabağı yaz Kiçik çillə



Xalq təqvimimizdə özünə yer tutan əlamətdar gün, tarixi bayramlar içərisində Kiçik çillənin öz yeri, əlamətləri və ayinləri var. Bu, şifahi xalq örnəklərimizdə geniş əks olunub, tədqiqatçılar bu barədə öz fikirlərini söyləyiblər. Bu baxımdan filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlının fikirləri də maraqlıdır. Professor yazır ki, xalq təqviminə əsasən üç hissəyə ayrılan qış fəsli, qədim hesabla isə çillənin girməyi, qışın gəlməyinə işarədir. Qırxgünlük Böyük çilləni başa vurub iyirmigünlük Kiçik çilləyə qədəm qoyduğumuz gün ən sərt keçən qış günlərindəndir. Kiçik çillə yanvarın 31-dən fevralın 19-dək olan dövrü əhatə edir.

Təqvim olaraq bölünən bu hissələrdə çillə (çilə) gecələri keçirilərdi. Bu gecələrdə digər mərasimlərdə olduğu kimi, insanlar sobanın və ya kürsünün ətrafında toplaşardılar. Yay, payız aylarından toplanan azuqələr qışın oğlan çağında süfrələrdə dadlı təamlar şəklində düzülər, tağından dərilib zirzəmidə saman arasında saxlanılan qarpız da çillə günləri kəsilərdi. Analar xəmir yoğurub kökələr yapar, əsasən də, soğança ilə balqabaq kətəsi bişirərlər. Yayda qurudulmuş meyvə qurularından (Naxçıvanda "qax" deyilir) xoşablar hazırlanıb süfrəyə verilir. Hətta çillə günləri sərt soyuq olsa da, yurdumuzun bayram ovqatlı insanları adət-ənənələrimizə xas şəkildə nişanlı qızlara bayram xonçaları tutar, kimisi elçi gedər, kimisi də barışığa yollanar, qonşular bir-birinə qarpız payı apparardılar...

*Bu qarpız çilə qarpız,*
*Düşübdü dilə qarpız.*
*Yığılıb xurcunlara (xonçalara),*
*Gəlib (gedir) yargilə qarpız.*

Onu da deyək ki, Kiçik çillə bəzi bölgələrimizdə nisbətən fərqli ayinlərlə də icra edilir. Etnoqraf alim Asəf Orucov bu barədə qeyd edir ki, muxtar respublikamızın bir sıra kəndlərində, xüsusən Culfa rayonunun Milax kəndində qardan kiçik heyvan heykəlcikləri düzəldərdilər. Bu da Böyük çillə ilə Kiçik çillə arasında olan təhvil-təslim dövrü deyilən vaxta təsadüf edirdi. El arasında bu, "cahar-cahar" fəsli adlanırdı.

Ulularımızdan qalan belə bir deyim var: "Çillə girəndə də, çıxanda da şirin-nabatnan adını anıb onu urvatnan yola salmaq gərəkdi. Yoxsa incik düşüb gələn il nəhs üzünə gələr". Kiçik çillənin əvvəlində – indiki hesabla götürdükdə, təqribən, fevralın birinci ongünlüyü ərzində axşam şər qarışandan sonra uşaqlar və cavanlar bir yerə toplaşardılar. Dəstələnib "Xıdır" nəğməsi oxuyaraq qapılardan pay yığardılar. Xalq arasında deyirlər ki, Xıdır girdi, qış girdi, Xıdır çıxdı, qış çıxdı. Bu da onu göstərir ki, Kiçik çillənin sərtliyi, hikkəsi bitmiş sayılır.

**✍ Aidə İBRAHİMOVA**

Böyük çillədən sonrakı dönəm xalq arasında Kiçik çillə adlanır və 20 gün davam edir. Fevral ayının 1-dən etibarən Kiçik çillə başlayır. Kiçik Çillənin birinci ongünlüyündə xalq arasında Xıdır Nəbi mərasimi icra olunur. Xıdırın hər evə gəlməsini arzu edən xalq müxtəlif ayinlər icra edər. Xalq həm də belə deyər ki, Xıdırın ən çox sevdiyi qovutdur. Bunun üçün qovutu kiçik qablarda evin dörd küncünə qoyarlar. İnanırlar ki, Xıdır gəlib qovutun üzərinə barmaq basacaq, bununla da o evdə bar-bərəkət artacaqdır. Türk xalqlarında, o cümlədən Azərbaycan türklərindəki etiqada görə, Xıdır bolluq, yaşıllıq, ölümsüzlük, yenilik, sevinc daşıyan hami ruhdur. Ona hörmət, ehtiram göstərilərsə, o da həmin yerə hörmətlə yanaşar, o evə bolluq arzulayar. Əgər evdə vardövlət, bar-bərəkət çoxalarsa, el arasında "Bu evə Xıdır gəlibdir, bu nemətə Xıdır əli dəyibdir", – deyərlər.

Qışın ikinci mərhələsi sayılan Kiçik çillə dönəmində hava, adətən, Böyük çillə ilə müqayisədə çox soyuq keçir. Elə xalq da deyir: "Əsas şaxta Böyük çillədən sonra olur, yəni Kiçik çillədə. Bu Kiçik çillə çox sərt olur. O qədər soyuq, şaxtalı keçir ki, meşədə heyvanlar, çöldə quşlar üşüyür, donur. 20 günlük Kiçik çillə nə qədər sərt olsa da, ömrü qısadır. Bu vaxt həm də günlər uzanır". Xalq yaddaşında iki qardaş və ya iki bacı kimi obrazlaşdırılan Böyük çillə və Kiçik çillə bir-birinə qarşı qoyulur. Böyük çillə nə qədər yumşaq təbiətli olaraq obrazlaşdırılırsa, Kiçik çillə onun əksinə olaraq öz təbiəti etibarilə sərt, ərköyün obraz kimi xarakterizə olunur. Bu baxımdan professor A.Nəbiyevin fikirləri böyük önəm daşıyır: "...Maraqlı cəhətlərdən biri də odur ki, mərasim düşüncəsində insan özünün şərə, pisliyə münasibətinin müəyyən cəhətlərini Kiçik çillə ilə bağlı poetik düşüncəsində ifadə edir:



*Kiçik çillə.*
*Boyu bir belə...*
*Hikkəsi bir belə...*
*Gəlişi oldu*
*Hayınan.*
*Gedişi oldu*
*Vayınan.*
*Əlində qırmanc,*
*Eli-günü yandırdı,*
*Neçə günahsız doqqaz bağladı,*
*Neçə alaqapı*
*Sındırdı.*
*Kəsdi neçə evin yağmasın,*
*Pendirin, çörəyin, ağmasın...*

Kiçik çillə dönəmində havalar soyuq keçir. Amma xalq belə hava şəraitinin uzun sürməsindən heç də narahat deyildir. Çünki Böyük çillə demişkən: "Ömrü azdır, qabağı yazdır". Hər kəs kəskin soyuqlarla müşayiət edilən havaların müvəqqəti olduğu ümidindədir. Soyuq və şaxtalı hava heç də insanları qorxutmur. Baxmayaraq ki, bu dönəmdə təsərrüfata və məişətə ciddi ziyan da dəyə bilər. Amma qədim təfəkkürdən irəli gələrək insanlar elə qışın ilk mərhələsindən – Böyük çillə zamanından işlərini, necə deyərlər, ehtiyatlı tutmuş, soyuq qışın onların təsərrüfat və məişətlərinə vura biləcəyi ziyanın qarşısını almaq üçün öz tədbirlərini görmüşlər: çillə mərasimlərinin, ayin və rituallarn icrasını həyata keçirərək bir növ, özlərini soyuq qış təhlükəsindən sığortalamışlar.

Xalq təsəvvüründə çillədən çıxmaq ağırlıqdan, məşəqqətdən qurtulmağa bərabərdir. "Çillə" sözünü bir çox tədqiqatçılar müxtəlif şəkildə izah edirlər. Folklorşünas C.Bəydili "çillə" ilə bağlı yazır ki, "çillə" sözü məhrumiyyət, sıxıntı, əziyyət çəkmə mənalarını verir. Bu məqam bir bayatıda öz əksini tapır:

*Əllərin saza bənzər,*
*Boyun gülnaza bənzər.*
*Bir kərə səni görsəm,*
*Çilləm də yaza bənzər.*

Kiçik çillə dönəmində hava şəraitinin kəskin soyuqlarla müşayiət olunmasına baxmayaraq, sonrakı dönəmin – Boz ayın gətirəcəyi soyuqlu-istili günlər insanların qəlbində yeni həyata ümid yaradır. Odur ki, "ömrü az, qabağı yaz" olan Kiçik çillə insanları öz soyuqluğu və şıltaqlığı ilə qorxuda bilmir. Güney Azərbaycan folklorunda da Kiçik çillənin ərköyünlüyü, təbiət etibarilə ziyanxor olmağı poetikləşir:

***Kiçik çillə:***
*Şaxtamı kəndə salaram,*
*Ağacları çatladaram.*
*Hər yanı buz bağlaram,*
*Tamam xəlqi ağladaram*
***Böyük çillə:***
*Qabağın yazdır sənin,*
*Ömrün azdır sənin.*
*Hərbə-zorba dəmə çün,*
*Fikrin dayazdır sənin.*

Kiçik çillənin, xalqımız demişkən, qışın oğlan çağının insanlara, onların təsərrüfat və məişətinə vura biləcək ziyanının qarşısını almaq üçün keçmiş dönəmlərdə icra olunan bir çox ayin və rituallar olub ki, bu gün onların çox az qismi müasir günümüzədək gəlib çıxıb. İstər qədimlərdə icra olunan, bu gün isə yalnız kiçik poetik örnəklərdə izləri yaşayan ayin və rituallar, istərsə də günümüzdə də icrası müşahidə olunan mərasim örnəkləri xalqımızın qədim mifoloji dünyagörüşündən xəbər verir.

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Ordubad dağlarının bezoarları



Naxçıvan Muxtar Respublikasının florası kimi, faunası da zəngindir. Qədim diyarın dağlıq ərazilərində vəhşi təbiətin xeyli sayda növləri məskunlaşıb. Burada nadir heyvanlardan sayılan bezoar – dağ və ya qaya keçiləri min illər boyu yaşayıb.

Yer üzərində keçi cinsinə aid yayılmış 9 növdən biri olan dağ keçilərinə muxtar respublikanın dəniz səviyyəsindən 900-3000 metr hündürlük arasında sərt qayalıq ərazilərində təsadüf edilir. Naxçıvan Muxtar Respublikasının Dərələyəz və Zəngəzur dağlarının hündürlüklərində, Pəzməri, Kotam, Gənzə vadilərində, Nehrəmdağ, Darıdağ, Haçadağ, Nəsirvaz silsiləsi və sair ərazilərdə xüsusilə çoxsaylıdırlar.

Ordubad rayonunun Pəzməri kəndi həm təbiətinin gözəlliyi, həm də faunasının zənginliyi ilə seçilir. Burada dağ keçisi, ayı, canavar, porsuq və sair heyvanlar, o cümlədən müxtəlif meşə quşlarına rast gəlmək olar. Pəzməri kəndindən 4-5 kilometr aralıda yerləşən və təbiətin dərinliklərində gizlənən Pəzməri şəlaləsindən bu ecazkar təbiət növlərini – xüsusilə də bezoar və ya dağ keçilərini aydınca görmək mümkündür. Bezoar keçisinin diqqəti cəlb edən buynuzları qövsşəkilli və ya qılıncvaridir. Onların yaşama müddəti 15-20 il arasındadır və birlikdə sürü halında yaşayırlar. Əsasən, ağac, kol yarpaqları, müxtəlif növ otlarla və yabanı meyvələrlə qidalanırlar.

Muxtar respublikada vəhşi təbiətin qorunmasının düzgün təşkili nəticəsində bezoar keçilərinin sayında hər il artım müşahidə olunur.

**Xəbərlər şöbəsi**

## Bildiriş

"İnci" kiçik müəssisəsi öz təşkilati hüquqi formasını dəyişdirərək "İnci 2024" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

***

Babək Yol Təmir İstismar İdarəsinin adı və təşkilati hüquqi forması dəyişdirilərək "Babək Yol Təmir İstismar" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

***

Culfa Yol Təmir Tikinti İstismar İdarəsinin adı və təşkilati hüquqi forması dəyişdirilərək "Culfa Yol Təmir Tikinti İstismar" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

***

Kəngərli Yol Təmir İstismar İdarəsinin adı və təşkilati hüquqi forması dəyişdirilərək "Kəngərli Yol Təmir İstismar" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

***

Naxçıvan Yol Təmir Tikinti İdarəsinin adı və təşkilati hüquqi forması dəyişdirilərək "Naxçıvan Yol Təmir Tikinti" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

***

Ordubad Yol Təmir İstismar İdarəsinin adı və təşkilati hüquqi forması dəyişdirilərək "Ordubad Yol Təmir İstismar" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

***

Sədərək Yol Təmir İstismar İdarəsinin adı və təşkilati hüquqi forması dəyişdirilərək "Sədərək Yol Təmir İstismar" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

***

Şahbuz Yol Təmir İstismar İdarəsinin adı və təşkilati hüquqi forması dəyişdirilərək "Şahbuz Yol Təmir İstismar" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

***

Şərur Yol Təmir Tikinti İstismar İdarəsinin adı və təşkilati hüquqi forması dəyişdirilərək "Şərur Yol Təmir Tikinti İstismar" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

## İtmişdir

Naxçıvan şəhəri, Hacıniyyət kənd 6-cı küçə, 20$^{C}$-də yaşayan Xəlilova Flora Əli qızının adına olan torpaq sahəsinin 104013012059 reyestr nömrəli planı və ölçüsü, MH-0058122 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Güznüt kənd sakini Əliyev Müslüm Əli oğlunun adına olan JN-539$^{B}$ nömrəli, 10310005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Maxta kəndində yaşamış Abdullayev Hətəm Əli oğlunun adına olan JN-148$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonunun Dəmirçi kənd sakini Əliyeva Leylan Bəhlul qızının adına olan JN-954$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Hərbi qulluqçu Bağırov Kazım Vasif oğluna məxsus gizirin SQ N0027961 nömrəli şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kəndində yaşamış İbrahimova Sədaqət Həsən qızının adına olan JN-1259$^{A}$ nömrəli, 10206005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Yaycı kənd sakini Məmmədyarova Fəridə Mehdi qızına məxsus JN-1262$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində Bağırov İsa Nəsir oğlunun adına verilmiş 220 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Ərəzin kənd sakini Qocayev Saleh İsmayıl oğlunun adına olan 316$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Çeşməbasar kəndində yaşamış Əliyev Hidayət Muxtar oğlunun adına olan JN-122 nömrəli, 10310005 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

13 aprel 2017-ci il tarixli 260 inventar nömrəli daşınmaz əmlakın texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 29